QARABAĞ AZƏRBAYCANDIR!

## Bəşəri dəyərlər və humanizmin nümunəsi



3

## İtaliya-Azərbaycan əlaqələrində BÖYÜK PERSPEKTİV




2

Səs
№ 030 (6713) 17 fevral 2023-cü il. Qiymıəti 60 qəpik

# KTMT-nin qatlanan çətiri

*Yaxud Qafqazda kim kimdir?*



14

## Bir gecənin soyqırımı



13

## Xilasedicilərimiz: ilk gündən son günədək...



4

## Pullu polietilen paketlər: Ekologiyanı qorumaq, yoxsa...



15



12

## "Azərbaycanın öz qanuni tələblərini reallaşdırmasına çox az vaxt qaldı"

## Uşaq xərçəngi nədən yaranır?- SƏBƏBLƏR VƏ MÜALİCƏ YOLLARI



16




# İtaliya-Azərbaycan əlaqələrində BÖYÜK PERSPEKTİV



***Müstəqilliyini yenidən bərpa etdiyi dövrdən başlayaraq ölkəmizin İtaliya ilə də ikitərəfli münasibətləri qurulub və zaman keçdikcə bu münasibətlər yüksək səviyyəyə doğru inkişaf edib. Hazırda Azərbaycanın İtaliya ilə dərin əlaqələri var və bu əlaqələr heç də təsadüfi deyil. Təbii ki, neft-qaz sahəsindəki layihələrin xüsusi əhəmiyyəti var və bu da ikitərəfli münasibətləri əhəmiyyətli dərəcədə möhkəmləndirməkdədir. Ölkə rəhbərimizin, cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, son bir ayda İtaliyanın üç nazirinin Azərbaycana səfəri ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu göstərir.***

Göründüyü kimi, Azərbaycan-İtaliya münasibətləri möhkəm təməllər üzərində qurulub və qarşılıqlı faydalı əməkdaşlığa söykənir. Bu baxımdan da ölkələrimiz arasında olan həmin o möhkəm təməllər üzərində qurulan münasibətlər getdikcə daha da yaxşılaşmaqdadır. Ölkələrimizin bu münasibətlərdə maraqlı olduğu da təkzib edilə bilməz. Hər iki ölkənin strateji tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi istiqamətində nümayiş etdirdiyi səylər göz önündədir və illərdir ki, biz bunun əyani şahidiyik. Heç şübhəsiz ki, bu səylər də əbəs yerə deyil və bu da təkzib edilə bilməz ki, iki ölkə arasında olan münasibətlər dövlətlərarası əlaqələrin bütün istiqamətlərində öz bəhrəsini verməkdədir.

Ölkələrimiz arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olması İtaliya tərəfindən mövqeyimizin beynəlxalq platformalarda daim dəstəkləndiyində də özünü göstərib. Bu gün də bu əlaqələr TAP və CQD kimi önəmli layihələrdə belə davam etməkdədir. İtaliya üçün Azərbaycan çox önəmli bir ölkədir və bizimlə ikitərəfli əlaqələrə üstünlük verildiyi göz önündədir. İtaliya bizim təkcə ənənvi enerji resurslarımızla deyil, həmçinin alternativ enerji bazarlarında oynayacağımız rolla da maraqlanır. Azərbaycan-İtaliya əlaqələri hətta Qərb üçün belə böyük imkanlar deməkdir. İtaliya şirkətlərinin Qarabağın yenidən qurulmasında ciddi şəkildə iştirak etməsi də sıradan bir hal və eyni zamanda təsadüfi hesab oluna bilməz, bu, həmin imkanların düzgün dəyərləndirilməsi, eləcə də ölkəmizə olan marağın bariz nümunəsidir. İtaliyanın "Iveco" şirkətinin artıq azad olunmuş ərazilərdə özünün, yük maşınları istehsal edəcək müəssisələrinin yaradılmasına start verməsi ikitərəfli əlaqələrin bundan sonra daha dinamik inkişaf edəcəyindən xəbər verir. Artıq bundan sonra bir neçə istiqamətdə, ələlxüsus bərpa olunan enerji, kənd təsərrüfatı, maşınqayırma, əczaçılıq, elm və təhsil, mədəniyyət sahəsində əməkdaşlığın perspektivləri barədə daha nikbin proqnozlar verilir.

Müstəqillik dövrünün ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasiminin keçirilməsi və bu mərasimdə İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun iştirakı, eləcə də çıxışı ölkələrimiz arasında əlaqələrin dinamik inkişaf tendensiyasından xəbər verir. "Biz Azərbaycanın tarixi dostuyuq", deyə bəyan edən italiyalı nazir əslində bununla ölkələrimiz arasında əlaqələrin hansı səviyyədə, hansı müstəvidə olduğunu diqqətə çatdırır. 2018-ci ildə İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Bakıda qəbul olunmasını, eləcə də bundan cəmi iki il sonra, yəni 2020-ci ildə Azərbaycan Prezidentinin Romaya səfərini, həmin ilin İtaliyada Azərbaycan mədəniyyətinin mühüm ili olduğunu Adolfo Ursonun diqqətə çatdırması Bakı ilə Roma arasında xüsusi münasibətlərə onun böyük inamla yanaşdığını göstərir. "İki ölkə arasında çoxölçülü strateji tərəfdaşlığa əsaslanan mövcud münasibətlərin, siyasi dialoqun hərtərəfli genişləndirilməsi üçün davamlı və əmin şəkildə çalışırıq", deməsi isə, italiyalı nazirin ölkələrimiz arasında olan münasibətlərin böyük perspektivləri barədə əminliyindən xəbər verir.

İtaliya Avropa İttifaqının bizim üçün ən önəmli tərəfdaşıdır. Bu baxımdan da İtaliya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olması və inkişaf etməsi həddindən artıq dərəcədə vacibdir. Ölkəmizin ən böyük ticarət partnyoru sayılan İtaliya ilə Azərbaycan arasında münasibətlərin çox möhkəm təməlləri var və məhz həmin təməllər üzərində də əlaqələr sürətlə inkişaf etməkdədir. İnkişaf etmiş sahələr arasında enerji təhlükəsizliyi ön planda durur və bu baxımdan da Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi, eləcə də gələcəkdə davam etdirilməsi İtaliyanın öz üçün belə olduqca vacib hesab olunur. Nəzərə almaq lazımdır ki, Cənub Qaz Dəhlizinin sonuncu ünvanı məhz İtaliyadır və bu həm də deməkdir ki, Azərbaycanla İtaliya arasında münasibətlərin daha dinamik şəkildə, özü də davamlı olaraq inkişaf etdirilməsi eyni zamanda bütövlükdə Avropa üçün də maraqlıdır. Təsadüfi deyil ki, hazırda ayrı-ayrı dövlətlər, xüsusən də Avropa ölkələri Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən tərəfdaşlıqların inkişafına böyük önəm verirlər.

İtaliya Azərbaycanın Avropada böyük ticarət və ixracat tərəfdaşıdır. Hətta pandemiya dövründə belə iki ölkə arasındakı ticarət dövriyyəsinin həcminin əvvəlki dövrdən aşağı olmaması, həmin dövrdə bir çox ölkələrin ticarət göstəricilərinin aşağı düşməsi fonunda vəziyyətin Azərbaycan və İtaliya arasındakı iqtisadi əlaqələrə təsir etməməsi bir çox məqamlardan xəbər verir və sadalananları təsdiq edir. Cənubi Qafqaz ölkələri ilə İtaliya arasında aparılan ticarətin 90 faizdən çoxunun Azərbaycanın payına düşməsi özü də təsdiq edir ki, həmin ölkələr arasında İtaliyanın ən iri ticarət tərəfdaşı məhz Azərbaycandır. Ölkəmizdə sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkətinin fəaliyyət göstərməsi özü belə təsdiq edir ki, İtaliya Azərbaycanla əlaqələri inkişaf etdirmək və bu əlaqələri, münasibətləri davam etdirmək marağındadır. Deməli, cəsarətlə deyə bilərik ki, ölkələrimiz arasında tərəfdaşlıq bundan sonra da davam edəcək. Xatırladaq ki, cənab Prezident İlham Əliyev İtaliyanın "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibəsi zamanı iki ölkə arasında tərəfdaşlığın uğurla həyata keçirildiyini bildirib. Ölkə rəhbərimiz qeyd edib ki, Avropa ittifaqı ilə Azərbaycanın yaxınlaşması da İtaliya dövləti üçün olduqca vacib haldır və bu səbəbdən də hər zaman Azərbaycanın Avropa İttifaqı ilə yaxınlaşmasını güclü şəkildə dəstəkləyib. Deməli, ölkəmiz üçün bu yaxınlığın hər mənada, xüsusən də siyasi baxımdan böyük önəmi var.

Göründüyü kimi, İtaliya həmçinin siyasi siferada belə Azərbaycanla çox yaxşı münasibətlər qurmaqda maraqlıdır və bu münasibətlər qurulub da. İtaliya ilk növbədə hərbi, təhlükəsizlik məsələlərində hər zaman konstruktiv mövqedə olub. Bundan əvvəl də İtaliya-Azərbaycan münasibətlərinin uğurla inkişaf etməsinin səbəblərindən biri, özü də ən əsası ondan ibarət olub ki, İtaliya Ermənistanın işğalı nəticəsində beynəlxalq hüququn pozulması məsələsində həmişə, hər zaman obyektiv mövqedə olub. Bu fakt isə Azərbaycan tərəfindən yüksək qiymətləndirilir və bu baxımdan da çəkinmədən deyə bilərik ki, İtaliya ilə münasibətlərin daha da inkişaf etdirilməsi üçün bundan sonra da imkanlar genişdir, böyük perspektivlər gözləniləndir və buna xüsusi diqqətlə yanaşmaq gərəkir. Xüsusən də Avropa İttifaqının bir sıra ölkələrinin Azərbaycana qarşı ədalətsiz mövqe, eləcə də ikili standartlar konteqstində İtaliya, Macarıstan və bir sıra ölkələrlə münasibətləri inkişaf etdirmək çox vacib hesab olunur. İtaliyanın bu zamana qədərki mövqeyini nəzərə aldıqda isə görürük ki, bu Avropa ölkəsi həmin sırada birincidir. Çünki İtaliya istər torpaqlarımızın işğal altında olduğu vaxtda, istər 44 günlük Vətən müharibəsi dövründə, istərsə də postmüharibə dövründə ölkəmizə qarşı ədalətli mövqe sərgiləyən, dövlətlərarası münasibətlərdə ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını, suverenlik kimi beynəlxalq hüququn fundamental norma və prinsiplərini əsas götürən ölkə olaraq Azərbaycanın xarici siyasətində önəmli yer tutur. Unutmaq lazım deyil ki, İtaliya parlamentarilərinin 44 günlük müharibədən qısa müddət sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etmələri, İtaliya mediasının müharibə, eləcə də müharibənin nəticələri, həmçinin Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi müharibə cinayətləri, vandalizm aktları barədə obyektiv, ədalətli mövqe sərgiləməsi iki ölkə arasındakı bağların möhkəmliyindən, bundan sonra da həmin münasibətlərin heç bir kənar təsirlərə məruz qalmadığından xəbər verir.

Təsadüfi deyil ki, Azərbaycanın xarici siyasət kursunda İtaliya Respublikası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur və ölkələrimizi dostluq, əməkdaşlıq əlaqələri bağlayır. Münasibətləri ortaq faydalı tərəfdaşlıq xarakteri daşıyan tərəflərin, həm İtaliyanın, həm də Azərbaycanın dövlət başçılarının qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir desək, yanılmarıq. Bu xüsusda ölkə başçısının, cənab Prezident İlham Əliyevin ötən il İtaliyaya işgüzar səfəri münasibətlərin inkişafında əlbəttə ki, böyük əhəmiyyət kəsb edib. Səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlərin keçirilməsi, qarşılıqlı faydalılığa əsaslanan yeni əməkdaşlıqların əsasının qoyulması, sözsüz ki, münasibətlərin, əlaqələrin daha da yaxşılaşdırılması, dinamik inkişaf etdirilməsi, eləcə də davamlılığı baxımından xüsusilə qeyd edilməlidir.

***İnam Hacıyev***



# Bəşəri dəyərlər və humanizmin nümunəsi

Azərbaycan və Türkiyə qardaş dövlətlər olaraq tarix boyu bir-birinin yanında olduğu kimi, bu gün də arxa, dayaq, qardaş və dost ölkə olduqlarını əməli fəaliyyətlərində təsdiqləyirlər. Bu münasibətlər tarixin sınağından çıxmış və qardaş ölkələrin mənəvi-siyasi dəstəyi böyük rəğbət, sevgi ilə qarşılanıb, Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərkən haqlı mübarizəmizdə qardaş ölkə Türkiyə tərəfindən açıq siyasi və mənəvi dəstək göstərilməsi dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə dağıdıcı zəlzələ baş verən zamandan Azərbaycan da bir dost ölkə olaraq Türkiyənin yanında olaraq birlik nümayiş etdirir. Prezident İlham Əliyev "Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir", - deyərək zəlzələnin çox böyük bəla, böyük faciə olduğunu bildirmişdir: "Yəni, hər birimizə böyük mənəvi əzab verdi. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir".







Bu gün hər bir Azərbaycan vətəndaşı dağıntıların aradan qaldırılması, eləcə də zərər çəkənlərə maddi və mənəvi yardım etmək məqsədi ilə ayaqdadır. Dövlət səviyyəsində, o cümlədən fərdi şəkildə Türkiyəyə göstərilən yardımın ardı-arası kəsilmir.

Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardımlar davamlı olaraq göndərilir. Bununla əlaqədar olaraq, ilk olaraq faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. daxil olmaqla tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər çatdırıldı. Qeyd edək ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva faciə ilə əlaqədar verdiyi başsağlığında Türkiyə xalqının kədərinin bizim kədərimiz olduğunu qeyd edərək, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulamışdır. Hər zaman humanizm prinsipləri ilə insanların ümid yeri olan Mehriban Əliyeva bu gün də türk qardaşlarımıza maddi və mənəvi dayaqdır. Söylədiyi fikirlər, həyata keçirdiyi əməlləri ilə bunu təsdiqləyir. Növbəti humanitar yardıma faciədən zərər çəkmiş şəxslər üçün zəruri olan əlavə avadanlıqlar, o cümlədən qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, həmçinin axtarış-xilasetmə işlərinə dəstək məqsədi ilə ləvazimat və avadanlıqlardan ibarət idi. Fevralın 15-də isə zəlzələ bölgəsinə uçan təyyarədə çadırlar və qızdırıcılar daxil olmaqla ümumilikdə 40 ton yardım yola salındı. Faciənin ilk günündən qardaş ölkəyə öz dəstəyini göstərən Heydər Əliyev Fondu tərəfindən daha bir 105 tonluq humanitar yardım aparan təyyarə ilə qardaş ölkəyə zəlzələdən zərər çəkmiş insanların soyuq qış aylarında ən çox ehtiyac duyduqları qızdırıcılar və çadırlar çatdırılıb.




Eyni zamanda, vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə vətəndaşlardan toplanan isti geyim və avadanlıqlar da Türkiyəyə çatdırılıb.

Əlbəttə ki, bu və ya digər maddi və mənəvi dəstək Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığına əsaslanır. Əsrlər boyu Azərbaycan və Türkiyə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. "Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə"- deyə Prezident bildirib.

Qeyd edək ki, zəlzələdə yaralananların müalicəsi üçün dövlətimizin başçısının tapşırığına əsasən Bakıda və Naxçıvanda xüsusi şərait də yaradılıb.

Əlbəttə ki, hər zaman güclü dövlət olan Türkiyə bütün çətinliklərdən məğrur çıxdığı kimi, bunun da öhdəmindən gələcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda, Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Bu, qardaş xalqımızı sarsıtmayacaq, Türkiyə dövlətinin iradəsinə təsir etməyəcək. Türkiyə dövləti güclü dövlətdir və bu fəlakətlə də mübarizədə öz gücünü göstərir".

Bu iki dövlət arasında münasibətlər həmişə səmimi dostluğa, qardaşlığa, mənəvi birliyə əsaslanıb. Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xilasedicilərimiz: ilk gündən son günədək...

**Türkiyə günlərdir ki, fevralın 6-da gecə saatlarında bir-biri ilə 9 saatlıq zaman kəsiyində baş verən 7,7 və 7,6 bal gücündə iki böyük zəlzələnin acılarını yaşayır. Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis və Elazığa dünyanın əksər ölkələrindən üz tutan xilasedicilər günlərdir ki, dağıntılar altından insanları xilas edir və ya kədərli anlarla qarşılaşaraq onların cəsədini çıxarır.**

Türkiyə mediasının da vurğuladığı kimi, zəlzələyə ilk yardım edən Azərbaycan olub. Ölkəmizin başçısı cənab İlham Əliyev zəlzələ baş verən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla əlaqə saxlayaraq, böyük fəlakət üçün narahatlığını bildirib, başsağlığı verib. Həmin andan etibarən isə Türkiyəyə həm canlı, həm də humanitar yardımın göstərilməsi üçün göstəriş verib. Prezident bu barədə Türkiyənin ölkəmizdəki səfirliyində olarkən də bildirib: Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə.





## Xilasedicilərimiz böyük əzmlə çalışırlar

Ölkəmizin rəhbərinin göstərişi ilə Fövqəladə Hallar Nazirliyinin xilasedici dəstələri zəlzələnin ilk günündən Türkiyəyə yardım etmək üçün yollanıblar. Televiziya ekranlarından da gördüyümüz kimi, qardaş və dostumuz olan Türkiyənin bu ağır günlərində bizim xilasedicilərimiz həm gündüz, həm də gecə çalışaraq əllərindən gələni köməkliyi göstərməyə çalışırlar. Onların belə canıyanarlığı, bir insanın xilası üçün vaxt itirmədən çalışmaq əzmləri təbii ki, medianın da nəzərindən yayınmadı. Dəfələrlə Azərbaycan xilasedicilərindən danışan Türkiyə mediası onların fəaliyyətini işıqlandırmaqla gecə-gündüz çalışdıqlarını vurduladı.

Prezident cənab İlham Əliyev: Bu dəhşətli zəlzələ bizi çox sarsıtdı. Yəni, hər birimizə böyük mənəvi əzab verdi. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik. Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir.

Bilirsiniz ki, Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Yəni, kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir. Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

Bizim ictimai təşkilatlarımız da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Bəli, dövlətimizin başçısının göstərişi ilə Fövqəladə Hallar Nazirliyinin 725 əməkdaşı, o cümlədən 34 nəfərlik tibbi heyəti günlərdir ki, zəlzələ bölgəsində xilasetmə və yardım işləri ilə məşğuldurlar. Qürurverici haldır ki, ölkəmizə məxsus bu insanlar orada belə böyük fədakarlıqla çalışır və bir insanın daha tez xilası-yaşaması üçün səy göstərirlər. Həm də elə bir fədakarlıq göstərirlər ki, bu, diqqəti cəlb edir və günlərdir ki, bütün kütləvi informasiya vasitələri xilasedicilərimizin bu cür əzmindən, qayğısından ağızdolusu danışır.

## 53 həyat, 691 cəsəd

İnsan oğlu yarananandan həyatının hansı anında nə kimi hadisələrlə qarşılaşacağından xəbərsizdir. Alın yazısı deyilən bir yazı ilə yaşayan insan bu yazının ona nələr vəd etdiyindən də xəbərdar deyil. Bu səbəbdən də istənilən an alın yazısı, taleyin hökmü ilə müxtəlif qəzaların, fəlakətlərin, müharibələrin bəxş etdiyi "töhfələrlə" yaşamağa məcburdur.

Türkiyədə baş verən və əsrin fəlakəti adlandırılan məlum zəlzələ də kütləvi insan qırğını və dağıntılarla müşahidə olundu. Gecə saatlarında baş verən və insanları yuxuda ikən ağuşuna alıb onlara öz dəhşətlərini yaşadan bu böyük zəlzələ bəlkə də gündüz saatlarında olsaydı, bu qədər insan tələfatı ilə nəticələnməzdi. Gecə saat dörd ilə beş arasında insanların yuxuda ikən qarşılaşdıqları ağır zəlzələ onların kütləvi şəkildə məhvinə səbəb oldu.

Atalarımız necə də yerində söyləmişlər: gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır. Bəli, gecə onsuz da qaranlığı, sükutu ilə qorxuncdur. Hələ üstəlik də yuxunun ölüm kimi bir an olduğunu nəzərə alanda, gecə daha qorxunc olur. Hər hansı bir hadisənin baş verməsinin gecəyə təsadüf etməsi isə, təbii ki, heç də yaxşı əlamət deyil və bu hadisədən asanlıqla qurtarmaq mümkün deyil. Yol qəzaları, xəstəlik halları baş verən gecələrin qurbanları az olmayıb ki...

Türkiyənin 11 şəhərində də o müdhiş gecə insanları yuxudan silkələnmələr, uğultulu səslər, sanki yerlə göyün qovuşması kimi dəhşətli anlar oyatdı. Onların əksəriyyəti oyananda özlərini dağıntıların altında gördü. Bunu görən də oldu, bəli, görməyən də. Görməyənlər artıq o anın dəhşətli dağıntılarının qurbanı olmuşdular. Qaçmağa cəhd edənlər də oldu. Lakin çox az adam buna müvəffəq ola bildi. Çünki yuxudan qəfil oyanan insanlar nə edəcəklərini, başlarına nə gəldiyini ayırd edənədək iş işdən keçmişdi. Bu səbəbdən də itki çox oldu.





Fevral ayının 15-nin axşam saatlarına olan məlumata görə artıq 35 mindən artıq insan bu dəhşətli zəlzələnin qurbanı olub. Ölkəmizin Fövqəladə Hallar Nazirliyinin Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına cəlb edilmiş xilasedicilər zəlzələ bölgəsinə getdikləri gündən bu günədək Kahramanmaraşda dağıntılar altından 53 nəfəri sağ çıxarıblar.

Çox təəssüf ki, həyat hər an bizi arzuladığımız, görmək istədiyimiz hadisələrlə qarşılaşdırmır. Elə buna görə də xilasedicilərimiz Kahramanmaraşda dağıntılar altından həm də 691 nəfərin cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

53 nəfərin sağ olduğunu görərkən xilasedicilərimiz 53 dəfə sevindilərsə, 691 cəsədlə qarşılaşanda isə bir o qədər kədərləndilər. Çünki həyatlarını itirənlərin hər biri bizim dostumuz, qardaşımız, əzizimiz olmaqla yanaşı, bir evin atası, anası, babası, nənəsi, gənci, körpəsi idi. Bir ailənin həyatını itirmiş, arzuların yarımçıq qalmış əzizi idi. Bəlkə də onlar arasında bir ailə də var idi. Yer üzündən silinən bir ailə. Dağıntılar altına özü ilə birlikdə arzuları, istəkləri gömən ailə...

## Xilasedicilərimiz hələ də Türkiyədədir

Dünən televiziya ilə bir çox ölkələrdən, hətta Türkiyənin digər şəhərlərindən zəlzələ bölgəsinə yardım etmək üçün gələn xilasetmə qruplarının geri döndüyünü izlədik. Lakin FHN-nin xilasedicilər hələ də zəlzələ bölgəsində fəaliyyət göstərirlər. Xilasedicilərimizin hələ də orada qalmalarını və dağıntılar altından xilasetmə işlərini davam etdirmələrini Türkiyə mediası yenə xüsusi vurğuladı.

Bu kadrlara baxdıqca qürur duyduq. Həqiqətən də, dost dar gündə tanınar, deyib atalarımız. Necə ki, Türkiyə 44 günlük Vətən müharibəsində hər an bizim yanımızda oldu, öz dəstəyini göstərdi, biz də bu böyük fəlakət zamanı Türkiyənin yanındayıq. Və bununla da həm Türkiyə, həm də Azərbaycan bir-biriləri üçün əsl dost olduqlarını nümayiş etdirdilər.

Yadımdadır, 44 günlük müharibə zamanı xalqımızın itkiləri üçün başsağlığı verənlər, Qarabağda gedən müharibəyə münasibət bildirənlər də vardı, həm yaxşı, həm də pis mənada rəylərini söyləyənlər də vardı. Lakin Türkiyə tamamilə bizim yanımızda idi. Müharibə bitən bir günə kimi də yanımızda oldular. Böyük Zəfərimizin sevincini də bizimlə birlikdə yaşadılar.

Bu gün isə biz onların yanındayıq. Hər cür yardımımızla, köməyimizlə Türkiyədəyik. Dövlətimizlə yanaşı, Azərbaycanın hər yerindən insanların zəlzələdən əziyyət çəkə insanlara yardım etməsi onun göstəricisidir ki, biz qonşu, dost dövlət olmazdan əvvəl qardaşıq. Bir-birimizə canımız yanır. Can yananda isə insanlar əvvəldən axıradək bir-birilərinin yanında olurlar.

Xilasedicilərimiz bu gün də öz qardaşlarının yanındadır. Sonadək də orada olacaqlar. Çünki bir qardaş-bacılarının həyatını xilas etmək onlar üçün isti evlərindən, istirahətdən dəfələrlə önəmlidir.

## FHN əməkdaşları ilə qürur duyuruq

Bəli, ölkəmizin adını uca tutan FHN əməkdaşları ilə qürur duyuruq. Onlar Vətənimizdə də bütün lazımi anlarda öz vəzifələrinin öhdəsindən layiqincə gələn insanlardır. Biz dəfələrlə yanğın, dağıntı olan ərazilərimizdə xilasetmə qrupunun təqdirəlayiq fəaliyyəti ilə qarşılaşmışıq. Onların fədakarlıqlarını 44 günlük Vətən müharibəsində də gördük. İşğaldan azad olan ərazilərimizdə lazimi işlərin həyata keçirilməsində xilasetmə qruplarının özünəməxsus fəaliyyəti oldu ki, onlar həmin bölgələrdə digər işlərin həyata keçirilməsi üçün zəmin yaratdılar.

Bu gün onların səsi qonşu, dost, qardaş Türkiyədən gəlir. Və türk mediasının səsi ilə bütün dünyaya yayılır. Deməli, onların sayəsində bütün dünya bizim Türkiyə ilə qardaşlığımıza şahidlik edir.

Bir insana həyat vermək, onu ölümün caynağından almaq insan övladına xas olan keyfiyyətlərdəndir. 53 insana həyat verən, onları ölümün ağuşundan zorla qoparıb həyata, yaşamağa qaytaran FHN əməkdaşları həqiqətən təqdirəlayiqdirlər. Qışın şaxtalı, boranlı günlərində, hər an təhlükə ilə üz-üzə olan zəlzələ bölgəsində gecə-gündüz yorulmadan çalışan xilasedicilərimizi alqışlayırıq. Onlara Türkiyədə fəaliyyətlərini bitirəndən sonra sağ-salamat ölkəmizə qayıtmalarını diləyir və xalqımızın bu qədər dəyanətli, fədakar övladları ilə bir daha qürur duyduğumuzu bildiririk.

***Mətanət Məmmədova***

# "Azərbaycan gəncləri öz dəstəkləri ilə qardaş ölkənin yanındadır"



Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələdən dərhal sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə Azərbaycan dövləti tərəfindən zəlzələdən zərər çəkmiş qardaş Türk xalqına yardım məqsədilə həyata keçirilən və xalqımızın da böyük dəstək verdiyi geniş miqyaslı tədbirlərə Azərbaycanın könüllü gəncləri də qoşulublar. Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə "ASAN Könüllüləri", "Gənc Könüllülər", "BİR Könüllü", "Aqrar İnkişaf Könüllüləri", "Naxçıvan Könüllüləri", "Böyük Qayıdış" könüllüləri və "Ekokönüllülər" təşkilatlarının üzvləri arasından daha təcrübəli və çətin şəraitdə fəaliyyət göstərməyə hazır olan gənclər müəyyən edilərək, ilkin təlimatlandırma keçdikdən sonra türkiyəli həmkarlarına dəstək vermək üçün qardaş ölkəyə yola düşdülər. Ulu Öndər Heydər Əliyevin "bir millət iki dövlət" fəlsəfəsinə əsaslanan İttifaqın bu humanitar fəaliyyəti çərçivəsində Azərbaycan könüllülər öz türkiyəli həmkarları ilə zəlzələnin baş verdiyi bölgələrdə faciədən zərər çəkmiş vətəndaşlara yardımların paylanılması, əhalinin istiqamətləndirilməsi, qeydiyyat və müxtəlif əlaqələndirmə işlərində iştirak edəcəklər. SİA mövzu ilə bağlı gənclər təşkilatları sədrləri, mətbuat katibləri və nümayəndələri arasında sorğu keçirib.

**NAYORA-nın sədri Azər Əliyev:** "Fevralın 6-da qardaş ölkə Türkiyədə baş vermiş dağıdıcı



zəlzələ hər birimizi dərindən sarsıtdı. Zəlzələnin ilk günündən etibarən qardaşlığımızın sözdə deyil, əməldə də olduğunun ən bariz nümunəsi Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla əlaqə saxlayaraq Azərbaycanın əməliyyat-axtarış və humanitar yardım sahəsində lazımi dəstəyi verəcəyini nəzərə çatdırıb və bu istiqamətdə operativ addımların atılması oldu. Həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu Türkiyəyə yardım kampaniyasında fəal iştirak etməkdədir.

Mən bunu əminliklə deyə bilərəm ki, hal-hazırda bir yumruq olaraq bütün Azərbaycan xalqı, böyükdən - kiçiyə yaşından asılı olmayaraq Türkiyənin yanındadır. Xalqımızın bu dəstəyi Azərbaycan, Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin və əbədiliyinin ən bariz nümunəsidir.

Zəlzələdən artıq 10 gün keçməsinə baxmayaraq bizim 100-dən çox könüllümüz hazırda Kahramanmaraşda humanitar yardım, logistika və digər lazımi məsələlərdə əllərindən gələn yardımı əsirgəmirlər. Hər bir ölkənin inkişafında aparıcı qüvvə olan gənclərimizin bu proseslərdə aktiv iştirak etməsi Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasətinin parlaq nəticələridir. Dövlət başçısı bu sahəyə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşır ki, bu da gəncləri daha da ruhlandırır, onlarda özünənam hissinin daha da yüksəlməsinə səbəb olur.

Bizə bu gün də çoxsaylı istəklər gəlməkdədir. Gənclərimiz zəng edərək, sosial media hesabları üzərindən bizimlə əlaqəyə keçərək könüllü olaraq Türkiyəyə gedib, yardım əllərini uzatmaq istədiklərini bildirirlər. Və mən ona görə bir qədər əminliklə qeyd edə bilirəm ki, Azərbaycan gəncliyi yardımsevərdir, hər zaman öz milli-mənəvi dəyərlərinə bağlıdır. Bu hal gələcəyin əmin əllərdə olduğunun bariz nümunəsidir.

Sonda zəlzələ nəticəsində həyatını itirən vətəndaşlara Allahdan rəhmət, yaralananlara isə şəfalar diləyirəm. Başımız sağolsun!".

**"Davam" Gənclər Hərəkatının PR və Media məsələləri üzrə katibi Lumu İsrəfilli:** "Türkiyədə baş vermiş ağır zəlzələ xəbəri bütün dünyanı, xüsusilə Azərbaycan xalqını hədsiz dərəcədə sarsıtdı. Hər zaman olduğu kimi "Türkiyənin acısı bizim acımızdır" deyərək bu faciənin ilk dəqiqələ-



rindən qardaş ölkənin yanında olduğumuzu təkcə sözlə deyil, əməllərimizlə də göstərdik. İstər Prezident İlham Əliyevin tapşırığına əsasən, dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi, istərsə də Azərbaycan xalqının əlində olan qədəri ilə etdiyi humanitar yardımlar iki dövlət arasında əlaqələrin ən yüksək səviyyədə olmasının bariz göstəricisidir.

Azərbaycan könüllü gənclərinin bu ağır günlərdə zəlzələ qurbanlarına dəstək məqsədilə səfərbər olaraq qardaş ölkəyə yollanması isə bu istiqamətdə atılan təqdirəlayiq addımdır. Hal-hazırda Azərbaycan könüllüləri orada yerli əhaliyə müxtəlif xidmətlər göstərir, Türkiyənin bu acılı günlərində mənəvi olaraq dəstək nümayiş etdirirlər. Bu, bir daha bir millət, iki dövlət arasındakı dostluq, qardaşlıq və həmrəylik nümunəsidir".

**"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı:** "Zəlzələ xəbərini eşidəndə hər kəsin ağlında bir şey var idi: Türk qardaş və bacılarımızın çətin anlarında əlimizdən gələni etməliyik. Bu hadisəyə dövlətimizin və xalqımızın reaksiyası çox böyük oldu. Türkiyəyə ilk yardım cənab Prezidentin tapşırığı ilə məhz Azərbaycandan göndərildi. Daha sonra Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Türkiyəyə ardıcıl humanitar yardımlar göndərildi. Eyni zamanda biz müxtəlif təbəqələrdən olan insanların qardaş ölkəyə humanitar yardım toplaması, yardımların yükləmə-boşaltma və çeşidlənməsi üçün bir araya gələrək türk qardaş və bacılarımıza böyük dəstək və həmrəylik göstərməsinin şahidi olduq. Bu sözdə həmrəylik deyil, bu qardaşlarının ağrısını özününkü bilən insanların reaksiyası idi. Məhz buna görə idi ki, zəlzələdən saatlar sonra artıq Azərbaycanda böyük kampaniya baş-



lanmışdı. Regionlarımızda qarlı-şaxtalı havaya baxmadan evindəki əşyaları ilə yardım edən insanlarımızı gördük. Dincəlmədən yardımların toplanmasında iştirak edənləri gördük. Hətta əlindəki son pulunu, əynindəki paltonu belə verənlər var idi. Biz həmçinin korporativ ianələr gördük ki, bu da bizə Türkiyəyə çox ehtiyac duyulan yardımı çatdırmağa kömək etdi. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan xalqı çətin anlarda qardaş ölkənin yanında olmağın vacibliyini dərk edir və ölkəmizdə səxavət və mərhəmətin sərhəd tanımadığını nümayiş etdirir.

Hər bir məsələdə olduğu kimi, Türkiyənin bu çətin günlərində dəstək olmaq üçün səfərbər olan Azərbaycan xalqının öndə gedənləri yenə də məhz gənclər idi. Bizim gənclərimiz Azərbaycanda keçirilən yardım kampaniyalarında aktivliyi, mərhəməti, əzmkarlığı, təşkilatçılıq proseslərində iştirakçılığı ilə yanaşı, həm də dövlətimizin dəstəyi ilə könüllü qruplar şəklində zəlzələ baş verən ərazilərə də yollandılar. Bizim gənclərimiz Azərbaycanın hər yerindən başqalarına kömək etmək və dünyada müsbət dəyişiklik etmək ideallarına sahib olan gənclərdən ibarətdir. Hazırda Türkiyədə olan gənc könüllülər zəlzələ qurbanlarına psixoloji dəstək göstərmək, müxtəlif məntəqələrdə qida, geyim, dərman və digər yardımların boşaldılması, çeşidlənməsi, paylanmasını həyata keçirir, enerji yükləmə mərkəzində əhaliyə xidmət göstərirlər. Həmçinin, könüllülərimiz yüzlərlə zərərçəkmiş şəxsə səyyar şəkildə çay paylayıb, müxtəlif ərazilərdə yerləşən məhəllələrə yardımlar çatdırıblar.

Eyni zamanda, zəlzələdən zərər çəkmiş sakinlərin yaşayışı üçün əlavə çadırlar quraşdırılaraq istifadəyə verilib. Ötən gün ərzində könüllülərimizin iştirakı ilə uşaq psixoloji reabilitasiya mərkəzi kimi fəaliyyət göstərən üç çadır quraşdırılıb, tibb təhsili olan könüllülərimiz tərəfindən yerli əhaliyə ilkin tibbi yardımın göstərilməsi işi davam etdirilib. Həmçinin uşaqlar üçün əyləncə mərkəzi kimi fəaliyyət göstərəcək əlavə çadır da istifadəyə verilib. Bundan əlavə, şəhərboyu hərəkət edən səyyar uşaq əyləncə məntəqəsində fəaliyyət göstərən könüllü qızlarımız hər gün yüzlərlə uşağa xidmət göstərirlər. Onlar həm də yerli türk gəncləri ilə ünsiyyət qurur və xalqlarımız arasında dostluq və qardaşlıq körpülərini daha da möhkəmləndirirlər. Könüllülərimizin bu təşəbbüsü, dəstəyi türk xalqı tərəfindən də böyük qiymətləndirilir. Onlar əsl dostluğun, qardaşlığın nə qədər səmimi olduğunu bu müdhiş fəlakətin yaralarını sararkən bir daha gördülər. Türkiyə və Azərbaycan xalqları arasında emosional əlaqə və həmrəylik çox güclüdür və belə çətin günlərdə Azərbaycanın, gənclərimizin qardaş ölkənin yanında olması bu bağın sübutudur.

Türkiyə xalqına demək istəyirik ki, siz tək deyilsiniz. Azərbaycan sizinlədir və bu çətin zamanda sizə dəstək olmaq üçün əlimizdən gələni edəcəyik. Ağrınızı və kədərinizi bölüşürük, daha parlaq və daha yaxşı gələcəyə doğru sizinlə işləməyə davam edəcəyik. Dünya ölkələrinə çağırış edərək demək istəyirik ki, sərhədlərindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq ehtiyacı olanlara kömək etmək üçün bir raya gəlməliyik. Biz mərhəmət, əməkdaşlıq və qarşılıqlı hörmət üzərində qurulmuş bir dünyaya doğru çalışmalıyıq. Azərbaycanın Türkiyəyə göstərdiyi yardım və dəstək bu dəyərlərin bariz nümunəsidir və ümid edirik ki, bu proses başqalarını da ruhlandıracaq".

***Ardı Səh. 6***

# “Azərbaycan gəncləri öz dəstəkləri ilə qardaş ölkənin yanındadır”

Əvvəli Səh.5

**”Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi İctimaiyyətlə əlaqələr üzrə menecer Surayə Rzayeva:** ”Qardaş ölkə Türkiyədə baş verən sarsıdıcı zəlzələ və onun





səbəb olduğu hadisələr, həyatını itirən və yaralı insanların olması hər birimizi dərindən sarsıdır. Azərbaycan xalqının hər bir nümayəndəsi daima bizimlə olan Türkiyənin yanındadır və öz birliyini göstərdiyi dəstəklə nümayiş etdirir. Hadisənin baş verdiyi ilk gündən Ölkə rəhbərliyi tərəfindən edilən yardımlar, axtarış-xilasetmə qrupunun göndərilməsi, xalqımızın, biz gənclərin bu prosesdə fəal iştirakı olduqca vacib addımlardır.

Yaxın zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Azərbaycan dövləti tərəfindən keçirilən yardım aksiyalarına fəal gənclər və könüllülər də qoşulublar. Biz gənclər ölkəmizdə keçirilən yardım kampaniyalarına qoşulmaqla yanaşı, həmin yardım paketlərinin hazırlanması, çeşidlənməsi və göndərilməsi işlərinə də könüllü şəkildə dəstək verdik. Həmçinin, 100-dən çox könüllü fəlakət bölgəsinə səfər edərək orada çətinliklərlə üzləşən insanlara dəstək olur, yardımların paylanması işlərinə kömək edir və əhalinin istiqamətləndirilməsində iştirak edirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva, müvafiq dövlət qurumları, özəl şirkətlər, müxtəlif təşkilatlar və bütün xalqımız ilk gündən etibarən dəstəyi ilə əsl qardaşlıq nümunəsi göstərir. ”Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi olaraq da həm komandamız, həm də üzvlərimiz təşkil olunan humanitar yardım aksiyalarında fəal şəkildə ilk gündən etibarən iştirak edirik, ehtiyac olduğu müddətcə də dəstəyimizi davam etdirəcəyik.

Bütün bunlar, Azərbaycanda dövlət və xalq arasında milli həmrəyliyin, inamın ifadəsidir. Bir Azərbaycan gənci olaraq fəxr edirəm ki, yaşlı, uşaq fərq etmədən, canlabaşla ağır günlərdə soydaşlarımızın çətin günündə onlarlayıq. İnanıram ki, bu çətinliklərin də öhdəsindən birlikdə gələcəyik”.

**”Davam” Gənclər Hərəkatının üzvü Riad Cəbrayılov:** ”Cənab Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən Azərbaycandan Türkiyəyə göndərilən 100-dən çox gəncin olduğu ilk könüllü heyətin sıralarında olmaq olduqca qürurverici, həmçinin böyük məsuliyyətdir. Burada olduğumuz müddətdə müxtəlif yerlərdə yerli sakinlərə, zəlzələdən əziyyət çəkmiş insanlara humanitar yardımlarda iştirak edirik. Yemək sıralarında koordinasiya, göndərilən humanitar yardımların paylanması, yük tırlarının doldurulub-boşaldılması və bu kimi bir sıra könüllü dəstəyinin ehtiyac duyulduğu işlərdə gənclər olaraq səylə çalışırıq. Qısa müddət ərzində türk qardaşlarımız bizi həddindən artıq böyük sevgi və istiqanlılıqla qəbul ediblər. Bizim burada olmağımızın onlar üçün nə qədər müsbət təsir bağışladığını məhz onların ifadə etdikləri təəssüratlarından aydın görürük. Bu da bizi buradakı vəzifəmizin icrasına daha ciddi yanaşmağa sövq edir. Allah bir daha türk dünyasına belə çətin anlar yaşatmasın”.

**”Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi Regionlarla iş üzrə koordinator Nurlan Abbasov:** ”Zəngin tarixi və heyrətamiz təbiəti ilə bütün dünyanı özünə cəlb etməyi bacarmış, dünyanın mədəniyyət ocaqlarından biri qardaş Türkiyə əfsuslar olsun ki, böyükmiqyaslı bir təbii fəlakətlə üzləşib. Fevral ayının 6-sı baş verən bu dəhşətli hadisə nəticəsində minlərlə insan həyatını itirmiş, yaralanmış, çətin vəziyyətə düşmüş və şəhərlər ciddi zərər görmüşdür.



Zəlzələdən dərhal sonra qardaş ölkənin dərdini bölüşən, dəstəyi ilə yanında olan Azərbaycan tərəfindən atılan addımlar ölkələrarasında olan qardaşlığın sübutudur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı ilə başladılan yardım kampaniyaları, xalqımızın həcmindən asılı olmayaraq etdiyi yardımlar və biz gənclərin könüllü şəkildə bu proseslərdə dəstəyimizlə rol sahibi olmağımız qürurverici hadisədir, bu bizim qardaşlıq borcumuzdur.

Paytaxt Bakıda təşkil olunan yardım kampaniyaları ilə yanaşı bütün regionlarımızda müvafiq qurumlar, təşkilatlar, vətəndaşlar bu prosesə ürəkdən qoşuldular. Regional Debat Mərkəzlərimizin üzvləri tərəfindən rəsmi dəstək fondlarına ianələr edildi, yardım paketləri hazırlandı və göndərildi. Bu qardaşlığımızın göstəricisidir, çətin vəziyyətdə olan Türk qardaş və bacılarımıza olan dəstəyimiz daima davam edəcək. Qardaş Türkiyə üçün çətinliklərin geridə qalacağı günlər arzulayırıq, birliyimizi qoruyuruq”.

*Ayşən Vəli*

# “Heydər Əliyev İli” çərçivəsində YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə görüşü keçirilib



**Fevralın 16-da ”Heydər Əliyev İli” çərçivəsində Milli Arxiv İdarəsində Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə görüşü keçirilib.**



Görüşdə YAP-ın Binəqədi, Qaradağ və Zəngilan rayon təşkilatlarının üzvü olan gənc fəallar iştirak ediblər. Tədbirdən öncə Milli Arxiv İdarəsinin foyesində ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən foto-sərgiyə baxış keçirilib. Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Təşkilat sədrinin sözlərinə görə, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə ”Heydər Əliyev İli” elan olunması ilə əlaqədar Tədbirlər Planı hazırlanıb. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən ”Heydər Əliyev İli” ilə əlaqədar Tədbirlər Planı hazırlanıb və İdarə Heyətinin qərarı ilə təsdiq edilib. Bu tədbir də həmin plana uyğun olaraq təşkil edilib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəm dövlətçiliyimizin və xalqımızın intibahında tarixi mərhələləri təşkil edib: ”Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanışın yaranması dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı. Dağılmaq ərəfəsində olan Azərbaycan dinamik inkişaf edən bir ölkəyə çevrildi. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna çıxarmaq üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq”.

A.Rəhimzadə qeyd edib ki, bu gün Prezident İlham Əliyev Heydər Əliyev yolunu uğurla davam etdirir: ”Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan gəncliyinə qayğı ilə yanaşıb, gənclərin inkişafını xüsusi diqqət mərkəzində saxlayıb. Gənclərimiz Heydər Əliyevin zəngin irsini dərindən öyrənməli, Ulu Öndərin ideyalarına həmişə sadiq olmalıdırlar”.



YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov isə bildirib ki, bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət dayanır. E.Məmmədov ulu öndər Heydər Əliyevin hələ sovetlər dövründə Qarabağın inkişafı istiqamətində gördüyü işlərdən danışıb. E.Məmmədov tarixən Qarabağda azərbaycanlıların yaşadığını deyərək sonradan çar Rusiyası və sovet rejimi tərəfindən Xankəndi və ətraf ərazilərə məqsədli şəkildə ermənilərin köçürüldüyünü söyləyib. Onun sözlərinə görə, 1969-cu ilə qədər keçmiş DQMV-də ermənilər söz sahibi idi, azərbaycanlıların hüquqları pozulurdu. Lakin Heydər Əliyev respublikamıza rəhbərliyə gəldikdən sonra vəziyyət müsbət mənada dəyişdi. Keçmiş DQMV ərazisində yeni iş yerləri, Xankəndidə ali məktəb açıldı. Kənar rayonlardan azərbaycanlılar Qarabağa işləməyə gəldilər, həmçinin azərbaycanlı gənclər Xankəndidəki ali məktəbdə təhsil almağa başladılar. Bu da keçmiş DQMV-də azərbaycanlıların rolunun artmasında vacib amil oldu. Deputat qeyd edib ki, sovetlər dönəmində ulu öndər Heydər Əliyev bir neçə dəfə Şuşaya səfər etməklə hər kəsə sübut etdi ki, Qarabağ əzəli Azərbaycan torpağıdır.

E.Məmmədov qeyd edib ki, gənclər keçmişimizi heç vaxt unutmamalı, tariximizi dərindən öyrənməlidirlər. Çünki keçmişini unutmayan, tarixini bilən xalq öz gələcəyini daha uğurlu qura bilir.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərindən bəhs edib. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən V.Novruzovun sözlərinə görə, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O, ulu öndər Heydər Əliyevin zəngin irsinin hər zaman öyrəniləcəyini vurğulayıb. YAP Veteranlar Şurasının üzvü Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Tədbirdə Milli Arxiv İdarəsinin rəis müavini Həsən Həsənov çıxış edərək ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. Daha sonra YAP Veteranlar Şurasının üzvləri gənclərin suallarını cavablandırıblar.

# Keçiriləcək Münhen Təhlükəsizlik Konfransından GÖZLƏNTİLƏR




**Münhen Təhlükəsizlik Konfransının hansı şəkildə və necə keçiriləcəyi, ələlxüsus, burada cənab Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyanın iştirakı, hətta iki ölkə rəhbərinin baş tuta biləcək ikitərəfli görüşü və nəticələr hər kəsdə maraq doğurur. Təbii ki, əgər 17-19 fevral tarixində keçiriləcək Münhen Təhlükəsizlik Konfransında Azərbaycanın və Ermənistanın dövlət başçıları iştirak edəcəksə, deməli, onların nəinki ikitərəfli görüşü, hətta bir daha debatın keçirilə biləcəyi də istisna deyil və bu dəfəki görüş, yaxud debatın yenə də Azərbaycan Prezidentinin üstünlüyü ilə olacağı da gözləniləndir.**

İki ölkə rəhbərinin, Azərbaycan Prezidentinin və Ermnistanın baş nazirinin əvvəlki görüşü, tərəflərin debatı qətiyyən yaddan çıxan deyil. Bunu hər kəs yaxşı xatırlayır və unutmayıb ki, həmin görüşdə, debatda ölkəmizin, ölkə rəhbərimizin çox böyük üstünlüyü də birmənalı şəkildə unudulmayıb. Əvvəlki görüşdə erməni baş nazir Nikol Paşinyanın hansı gülünc vəziyyətlərə düşməsi, ingilis dilində danışarkən çox səhvlərə yol verməsi, hətta kəkələməsi, ifadələrində belə bir-birinə zidd fikirlər səsləndirməsi, bir sözlə, rüsvayçı durumu da hafizəmizdədir. Ermnistanın baş nazirinin Azərbaycan Prezidentinin qarşısında özünü itirməsi, beləliklə də öz nitqində çaşması, həmçinin, Qarabağın Azərbaycan olduğunu bildirməsi heç də unudulmayıb.

Azərbaycan Prezidentinin dəfələrlə böyük üstünlüyü ermənilər üçün heç arzuolunan deyildi, amma reallıq bunu deməyə əsas verirdi. Hər kəs ölkə rəhbərimizin çox böyük təmkininə, siyasi bacarığına, iradəsinə heyran qalmışdı. Elə ona gərə də təkcə biz yox,diqqətlə isləyirdi. Həmin görüş zamanı da Azərbaycan Prezidenti işğalçı ölkə rəhbərini siyasi müstəvidə də məğlub etdi, Ermənistanın baş naziri çox gülünc, hətta rüsvayçı vəziyyətə düşdü. Ermənistanın baş naziri erməni xislətinə müvafiq şəkildə yenə də bu toplumun uydurduğu qondarma miflərə söykənərək çıxış edir, öz çulunu sudan çıxarmağa çalışır, amma qətiyyən bu uydurmaları ilə hədəfdən, gülüş hədəfi olmaqdan yayına bilmirdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev isə konkret arqumentlərlə çıxış edir, faktları dilə gətirir, reallıqdan çıxış edirdi. Bu isə həm Nikolun çox-çox aşağı səviyyədə olduğunu, siyasi bacarığının, təcrübəsinin olmadığını, ölkə rəhbərimizin isə əksinə, olduqca böyük siyasi təcrübəyə, biliyə malik olduğunu, dəfələrlə üstün olduğunu növbəti dəfə isbatlayırdı.

Yenə də Azərbaycan Prezidenti kifayət qədər arqumentə sahib olan siyasi lider kimi hamı üçün üstün hesab olunur və erməni baş nazirinin bu dəfə də rüsvayçı şəkildə uduzacağı gün kimi aydındır. Çünki əgər müharibədən öncə ölkə rəhbərimiz qalib, üstün idisə, 44 günlük müharibənin məntiqi nəticəsi olan qələbəmizdən, qazandığımız Zəfərdən sonra daha üstün statusa malik hesab olunur və bu dəfə də qalibiyyəti zərrə qədər şəkk-şübhə doğura bilməz. Ümumiyyətlə, Azərbaycan xalqı öz liderinə, dövlət başçısına həddindən artıq güvənir və yaxşı başa düşür ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamçısı olan cənab İlham Əliyevin də növbəti qalibiyyətini indidən əminlika gözləyir.

Bəli, o zaman reallaşan debat Azərbaycan və Ermənistan liderlərinin beynəlxalq ictimaiyyət önündə ilk açıq müzakirəsi idi və hələ nə kimi hallarla qarşılaşılacağı haqda ölkə vətəndaşlarının təsəvvürü belə yox idi, amma indi artıq yetərincə təcrübə də var təsəvvür də. Üstəlik, bundan əvvəl Azərbaycan tərəfinin debatda iştirak etməkdə marağı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, işğal edilən torpaqlarımızın geri alınması idisə, indi artıq qalib ölkə olaraq qarşıya tələblər qoymaq niyyəti ilə Münhen Təhlükəsizlik Konfransında iştirak edə bilər. Həmin tələblər, Ermənistanla delimitasiya və demarkasiya, eləcə də iki ölkə arasında sülh müqaviləsinin bağlanması ola bilər. Ümumiyyətlə, bu tədbirdən gözləntilər olduqca çoxdur və Ermənistan tərəfi həmin tələblərlə burada da üz-üzə qalmalı olacaq. Əgər erməni baş nazir özünü də, ölkəsini də yenə gülünc etmək, gülüş hədəfinə çevirmək istəmirsə, bu tələbləri qəbul etməli, həmin tələblərə cavab verməlidir.

Maraqlı bir sual ortaya çıxır ki, əgər Ermənistanın baş naziri Nikol Paşinyan bu reallığı bilə-bilə niyə Münhen Təhlükəsizlik Konfransında iştirak etməkdən boyun qaçırmaq istəməsin? Ən azından onun bu dəfə haqqında qeyd olunan tədbirdə iştirak etməsi yenə də məkrli planlarını yeritmək istəyindən irəli gələ bilər. Çox güman ki, Paşinyan Münhen Təhlükəsizlik Konfransında Laçın yolunda ekoaktivistlərin dinc aksiyasını guya ekoloji terror kimi göstərmək niyyəti ilə tədbirə qatıla, ölkə rəhbərimizlə ikitərəfli görüşə can ata, buna nail ola bilər.

Qarabağdakı ermənilər guya "humanitar fəlakət"lə üzləşib" iddialarını, daha doğrusu, yalanlarını ortaya atmaq, buna, bu yalanına bütün dünyanı inandırmaq istəyi erməni baş naziri tədbirə qoşulmağa vadar edə bilər. Məhz öz yalanlarını, uydurmalarını, şər-böhtan xarakterli informasiyalarını dünyaya sırımaq istəyi Ermənistan tərəfini Münhen Təhlükəsizlik Konfransında iştirak etməkdə həvəsli olmağa sövq edər. Bircə məqamı Nikol Paşinyan da, onun hakimiyyəti də başa düşməlidir ki, nə qədər uydurmaya, nə qədər yalana, nə qədər şərböhtana ümid etsə də buna heç kimi inandıra bilməyəcək. Əvvəla ona görə ki, bu böhtançı, yalançı, rəzalət içərisində olan ölkənin rəhbərinin qarşısına Azərbaycan kimi qüdrətli bir ölkənin, liderlik keyfiyyətləri, siyasi iradəsi ilə sayılıb-seçilən dövlət başçısı, cənab Prezidemt İlham Əliyev çaxıcaq və bu dəfə də erməni baş nazirin gülüş hədəfi ola biləcəyi istisna deyil. Bir sözlə, Ermənistanın, şəxsən erməni baş nazir Nikol Paşinyanın gözləntilərinin nə olmasından asılı olmayaraq, reallıqlar ortaya qoyula bilər, bu isə işğalçı qonşu dövlət üçün heç də arzuolunan deyil.

Axmaq, ağılsız gözləntilər təkcə Ermənistana, bu ölkənin baş nazirinə xas deyil. Bu gün Fransa kimi bir dövlət belə xam xəyallara düşüb. Bu ölkə indi bölgədə, ən azından Ermənistanda öz yerini rahatlamaq fikrindədir. Heç şübhəsiz ki, Fransanın, Makronun özünün belə gözləntilərini də, ümidlərini də başa düşmək olar. Əvvəla ona görə ki, Fransa tərəfi bilir ki, on minlərlə vətəndaşının təlefatına və yaralanmasına səbəb olan Zəlzələ ilə əlaqədar olaraq Türkiyə tədbirdə iştirak etməyə bilər və bu zaman onun üçün meydan açılar. Digər tərəfdən də ona görə ki, Rusiyaya da Qərb, xüsusən Avropa indi baxdığı gözlə baxır və bu da həmin ölkənin sözügedən tədbirdə iştirakı üçün əngəldir. Həm də axı Rusiyanın başı özünə qarışıb və hansısa görüşdən gözləntisi də yoxdur. Belə olan halda ermənipərəst ölkənin gözləntiləri artmağa başlayır. Məsələ burasındadır ki, kimin, hansı ölkənin nə və necə gözləntisi olsa da, olmasa da hadisələrə zərrə qədər təsir edən deyil. Deməli, ən real gözlənti Azərbaycana məxsusdur, çünki işini, haqqın, ədalətin, beynəlxalq qanunların tələblərinə uyğun şəkildə qurub və Münhen Təhlükəsizlik Konfransından gözləntiləri böyükdür, məntiqidir.

***İnam Hacıyev***





# İsmayıllıda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində İsmayıllıda Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə tədbir keçirilib.**

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. İsmayıllı rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdən öncə "Heydər Əliyev İsmayıllıda" adlı fotosərgiyə baxış keçirilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Daha sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə həyata keçirdiyi müstəsna işlərdən danışıb. O bildirib ki, "Heydər Əliyev İli" ilə əlaqədar partiyamız tərəfindən keçirilən tədbirlərdə deviz kimi istifadə olunan Ulu Öndərin "Nə qədər ki Azərbaycan var, mən də varam" kəlamı müasir Azərbaycanın timsalında öz təsdiqini tapır və müdrik dövlət xadiminin ideyalarının əbədiyaşar olduğunu təsdiqləyir.

Tədbirdə çıxış edən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov qeyd edib ki, Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görə, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur: "Onun ideyaları elə işıqlı, parlaqdır ki, dövlətimizi və xalqımızı daim zirvələrə yüksəldəcək".

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruzəli Aslanov vurğulayıb ki, Heydər Əliyevin mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır: "Ümummilli lider Heydər Əliyevin fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik daim özünü göstərib. O, gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır. Bu ağır və məsuliyyətli işin öhdəsindən isə müdrik siyasəti ilə gəlmişdir".

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü Misir Mərdanov qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir.

Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu, İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Lətifə Əliyeva, partiya veteranı Yaşar Nuriyev, YAP Gənclər Birliyinin üzvü Azad Manaflı, şəhid Həsən Abdullayevin atası Aydın Abdullayev öz çıxışlarında vurğulayıblar ki, Azərbaycan və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev tarixi şəxsiyyətlər sırasında öz layiqli yerini tutub. Xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Qeyd olunub ki, bu gün xalqımız Ümummilli Liderin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərmanla təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim olunub.

# Heydər Əliyev-100

*Hamıdan dinlərkən*
*vəsfini Sənin...*
*B.Q.Səhənd*

Ümummilli lider, böyük dövlət xadimi Heydər Əliyevin bütün tarixi mərhələdə atdığı addımlar taleyüklü məsələləri ehtiva edir. O, hər zaman, hər dövrdə gördüyü işlərə xalqın milli dəyərlərinin dirçəlişindən başladı və bu istiqamətdə seçdiyi hədəflər, ünvanlar dəqiq, çəkili və sərrast oldu. Böyük sənət abidələri, böyük söz ustadları, böyük söz sərrafları... Sovet epoxasının hakimi-mütləq olduğu bir dönəmdə hədəflən-diyi böyük amallardan biri - Bütöv Azərbaycanı yaratmaq, qurmaq missiyasının da əsasında ilk növbədə, arzusunun bu güclərin birliyi, xalqa qayıdışı ilə reallaşacağına inam hissi dayanırdı. Bütöv, yekparə Azərbaycan anlayışının özünü bərpa etməklə! Onun üçün ən böyük vəhdət ərazi birliyindən də əvvəl, mədəni və mənəvi birliyə nail olmaq idi. Heydər Əliyevin Cənubi Aərbaycan mövzusuna həssaslığının mayası bu amaldan nəşət tapırdı.



*ELNARƏ AKİMOVA,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunda şöbə*
*müdiri*



# Heydər Əliyev və Cənubi Azərbaycan

Heydər Əliyevin SSRİ dövründə təhlükəsizlik orqanlarında çalışan zaman Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi istiqamətində və orda milli qüvvələrlə birgə işi barədə məlumat o qədər də geniş yayılmamışdır. Buna baxmayaraq, 1944-1945-ci illərdə Cənubi Azərbaycanda baş verən milli azadlıq hərəkatında, siyasi və ictimai təşkilatların yaradılmasında, müstəqillik ideyalarının formalaşmasında bu zaman artıq dövlət təhlükəsizliyi sahəsində çalışan gənc Heydər Əliyevin iştirakı bioqrafları tərəfindən qeyd olunur. Maraqlıdır ki, Heydər Əliyev haqqında ilk şeiri də cənublu şair Bulud Qaraçöplu Səhənd yazmışdır. Marağalı şair Bulud Qaraçorlu Səhəndin (1927-1979) 1974-cü ildə Heydər Əliyevə ünvanladığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" adlanan şeir məktub formasında yazılıb:

Hər ağır dəhşətə mən dözə-dözə,
Məsləkdaş, vətəndaş deyibən gəldim.
Ürək sandığını açmaqçın Sizə
Səfər yarağımı geyibən gəldim.
İstərdim Bakıda SƏN də olaydın.
Hamıdan dinlərkən vəsfini Sənin,
Heyf ki, görüşmək qismət olmadı.
Bisütunlar çapdım mən Fərhad təkin,
Ancaq ki, su gəlib arxa dolmadı.
Mən istərdim doğma bir qardaş kimi
Oturub, əyləşib danışam Sənlə
Bir məsləkdaş kimi, bir yoldaş kimi
Söz-söhbət açaydım ana Vətəndən.

1970-ci illərin ortalarında yazılan bu məktub-şeir Cənublu şairin Heydər Əliyevin şəxsində öz məsləkdaşını görməsi ilə əlaqədar idi. Ən azı məlum idi ki, Heydər Əliyev sovet vətəndaşı olmaqdan çox, bir azərbaycanlı olaraq fəaliyyət göstərirdi. Bu istiqamətdə onun fəaliyyətinin əsasını Cənubda yaşayan azərbaycanlıların milli kimlik şüurunu oyatmaq, Cənubi Azərbaycanın problemlərinə nüfuz etmək, ana dildə dərsliklər nəşr etmək, Azərbaycan dilində qəzetlər çap etmək, milli dildə şeirlər və əsərlər yazan yerli ziyalıları dəstəkləmək və s. məsələlər təşkil edirdi.

Filologiya üzrə fəlsəfə doktoru Azər Turan "Heydər Əliyev barədə yazılmış ilk mətn - Cənubi Azərbaycanın böyük şairi Bulud Qaraçorlu Səhəndin "Elimin dayağı, yurdumun fəxri" şeiri" məqaləsində yazır: "Nə baş verirdi ki, hələ panfarsist ideyaların tüğyan etdiyi, Rza şahın Azərbaycan türklərini ən adi milli hüquqlardan məhrum etdiyi dövrdə, yaxud Xəlil Rza Ulutürkün təbirincə "qocalmış, əprimiş fars millətini gəncləşdirmək, diriltmək üçün əlac axtaran paniranistlər yeganə çarəni Azərbaycan türklərini farslaşdırmaqda gördükləri". 1970-ci illərdə Səhənd Heydər Əliyevə şeir yazırdı və şeirində Əliyevi təkcə Bakının deyil, Təbrizin də, yəni bütöv Azərbaycanın dayağı adlandırırdı.

"Elimin dayağı, yurdumun fəxri" şeirinin özəllikləri çoxdur. Ən başlıcası isə budur ki, bu şeir dediyim kimi, ümumiyyətlə, Heydər Əliyevə həsr olunmuş ilk şeirdir. Digər tərəfdən, şeirin müəllifi Cənubi Azərbaycanın böyük şairi Bulud Qaraçorlu Səhənddir. Üçüncüsü, Ümumazərbaycan kontekstində bu şeir Heydər Əliyevlə bağlı ümummilli lider anlayışını irəli sürən ilk ədəbi mətndir: "Bu gün millətimin dayağı Sənsən, / Elimin çörəyi halalın olsun! / Dünyalar durduqca əsən dur, əsən! / Sənə göz dikmişdir bütün Vətənin!".

Səhənd Heydər Əliyevin yanına ağrılarından bəhs etmək, danışmaq, dərdləşmək üçün gəlirdi. "Dağlar boyda ağır dərdi özümnən, Təbrizdən Bakıya daşıdım ancaq", - yazırdı. Heydər Əliyev görünür, o zaman yalnız bu taydakı azərbaycanlıların deyil, o taydakı həmvətənlərimizin də pasibanı, himayəçisi, ümid yeri idi. Və təkcə ümid yerimi? Yeri gələndə mücadilə etməkdən çəkinməyən qorxmaz, fədakar vətən övladı!

Azər Turanın adı keçən məqaləsində Heydər Əliyevin xidmətləri sırasında cənubdan olan digər şair Məhəmməd Biriya ilə bağlı çox nadir və maraqlı olan fakta da vurğu edilir: "Film kimi bir həyat yaşamış, nazirdən mürdəşirə qədər ömür yolu keçib sonunda Təbrizdə kimsəsizlər evində dünyasını dəyişən cənublu şair Məhəmməd Biriya barədə yazılan tədqiqatlarda onun taleyi ilə bağlı mühüm bir məqam hər dəfə pərdə arxasında qalır. Məhəmməd Biriya ilə bağlı Heydər Əliyevin fəaliyyətini nəzərdə tuturam: "Cənubi Azərbaycanın böyük bir şairi var idi - Məhəmməd Biriya. Cənubi Azərbaycan hərəkatı zamanı nazir olmuşdu. Sonra Azərbaycana gəlmişdi. Təəssüf ki, 1949-50-ci illərdə Rusiyanın Saransk şəhərində düşərgədə cəza çəkirdi, onu həbs etmişdilər. Mən Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən 1958-ci ildə şəxsən Saranska getdim, Biriya ilə görüşdüm, onu Bakıya gətirdim. Çox böyük şair idi". Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən Rusiyadan - Saransk həbsxanasından "Arama qəbrimi, axtarma mənim başdaşımı, / Rəsimdə Həzrəti Nuh, ismdə xatəm də mənəm" deyən yazıq Biriyanı vətənə gətirmişdi".

Cənubi Azərbaycan problemi Heydər Əliyev üçün daim prioritet məsələ olmuşdur. Ulu öndər 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində toxunduğu çoxsaylı məsələlər kontekstində Cənub ədəbiyyatı ilə bağlı məqamları da həssaslıqla ədəbi yaddaşın dövriyyəsinə daxil etməyi unutmurdu: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

Bu, adi diqqət deyildi. Demək olar ki, cənub məsələsi Heydər Əliyevin varlığında illərlə yol gəlirdi. Məqamı gəldikcə, içində borc kimi daşıdığı niyyətini söz, ideya, əməl səviyyəsində gerçəkləşdirirdi. Bunu sənət adamlarının hər birinin mətnlərində dil açıb danışan yaddaş lövhələri də sübut edir. Məsələn, yazıçı Söhrab Tahirin xatirələrində Ümummilli lider Heydər Əliyevin 1981-ci ildə, Şüvəlanda yazıçıların yaradıcılıq evinin açılışında söylədiyi cəsarətli fikirlər heyrətamiz duyğusallıqla anılır: "O vaxt Heydər Əliyevlə aramızda çox maraqlı bir söhbət oldu. Mən qəribəm deyəndə, mərhum prezidentimiz dedi ki, niyə özünü qərib hiss edirsən? Dedim ki, bəs biz vətəndən aralı düşmüşük, ürəyimiz nisgillə doludur. Cavab verdi ki, onun günahı burada oturan şair və yazıçılardadır. Siz niyə o taydakı şair və yazıçıların əsərlərinin burada, bu taydakı şair və yazıçıların əsərlərinin o tayda çap olunmasına təşəbbüs göstərmirsiniz? Nə vaxt bu məsələ ilə bağlı mənə müraciət etdiniz, kömək etmədim? Əgər bu əsərlər həm o tayda, həm də bu tayda dediyim kimi çap olunarsa, hər iki Azərbaycan arasında mədəni körpü yaranar, əlaqələr daha da genişlənər və heç kəs özünü burada qərib hiss etməz. Şair, sən öz evindəsən. Biz bir ata-ananın övladlarıyıq. Ona görə də sən burada özünü qərib hiss etmə. Bu sözlər zalda gurultulu alqışlarla qarşılandı. Sonra Heydər Əliyev üzünü mənə tutub "Şair, davam elə" - dedi. Mən də bundan ruhlanıb dedim ki, bəs, bildiyiniz kimi Azərbaycan tarixin günahı üzündən iki yerə parçalanıb. Bu zaman Heydər Əliyev yenə sözümü kəsib dedi: "Şair, dayan! Niyə deyirsən ki, Azərbaycan tarixin günahı üzündən iki yerə parçalanıb?". Zala da dərin bir sükut çökmüşdü. Belə bir vəziyyətdə qorxa-qorxa soruşdum: - bəs nə deyim, yoldaş Əliyev? Qayıtdı ki, denən Azərbaycan imperialist qüvvələrin günahı üzündən iki yerə parçalanıb. Bu sözdən sonra zalda bir anlıq çaşqınlıq yarandı. Çünki heç kəs gözləmirdi ki, Heydər Əliyev Azərbaycanı iki yerə bölənləri, yəni İran və Rusiyanı adı ilə deyəcək və birdən sanki nə baş verdiyini zaldakılar anladı. Zalda bir alqış qopdu ki, gəl görəsən. Heydər Əliyev düz 15 dəqiqə zaldakıları sakitləşdirə bilmədi. Sevincindən ağlayan kim, bir-birini qucaqlayan kim. Sovet dövründə ilk dəfə idi ki, yüksək tribunadan Cənubi Azərbaycan məsələsi qaldırılırdı. Həmin andaca bu barədə Moskvaya xəbər çatdırdılar və elə oradaca hiss etdim ki, onu telefona çağırdılar. Sonralar eşitdim ki, bu çıxış Heydər Əliyevə müəyyən qədər başağrısı yaradıb".



"Başağrısı" əlbəttə ki, olmamış deyildi. Axı, özünün dediyi kimi, sovet dövründə "ən böyük dissident elə özü idi". Kremlin yüksək kürsüsündə əyləşib milli ideologiyaya xidmət edən bir siyasətçinin təəssübkeşliyi rəhbərlik üçün qəbul ediləsi hal olmasa da, Heydər Əliyev bilərəkdən "üzü küləyə" gedənlərdən idi. Bilirdi ki, qabartdığı hər ideyadan, hər toxunuşdan sonra əməl və hərəkat dirçəlişi gəlir. Elə 1981-ci ildə etdiyi çağırışdan sonra da ədəbi-elmi düşüncə sferasında Azərbaycan ədəbiyyatının bütövlüyü və Cənubda yaşayan yazıçılarla əlaqələrin yaradılması istiqamətində mühüm addımlar atılmağa başlandı. İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkarı bu bəyanatlardan sonra daha dərindən tanımağa, təbliğ etməyə başladılar. Xalq şairləri Süleyman Rüstəmin və Məmməd Rahimin Məhəmmədhüseyn Şəhriyarla şeirləşmələri, xalq şairləri Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin ustad şairlə telefon danışıqları böyük rezonans yaradan amillər idi. Əslən cənublu olan, lakin taleyin hökmü ilə Azərbaycanın şimalında yaşayıb-yaradan Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, Söhrab Tahir, Əli Tudə və başqa şair və yazarların Cənubi Azərbaycanda əsaslı tanışlıq dövrü həmin illərdə baş verdi. Ədəbiyyatımızda Cənub mövzusunda yeni əsərlər meydana qoyuldu. Onun təşəbbüsü ilə əslən cənublu olan Balaş Azəroğlu Yazıçılar İttifaqının katibi seçildi. Eləcə də ilk dəfə olaraq Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda şöbə açıldı, Cənubi Azərbaycan ədəbiyyatının araşdırma mərkəzinin təməli qoyuldu. "Cənubi Azərbaycan ədəbiyyatı milli sərvətimizdir" məqaləsində Teymur Əhmədov yazır ki, "Mirzə İbrahimovun ürəyində bəslədiyi nisgilli arzusunu rus sovet imperiyasının hakimiyyəti dövründə demokratik ab-havanın hiss olunduğu 70-80-ci illərdə rəsmi qadağaların mövcud olduğu şəraitdə həyata keçirmək olduqca müşkül idi. Lakin ölkə başçısı Heydər Əliyev müdrik alim-yazıçı Mirzə İbrahimovun təşəbbüsünü bəyənib, onun Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərkibində Cənubi Azərbaycan şöbəsini yaratmasına rəsmi göstəriş verdi".

Xalq yazıçısı Elmira Axundovanın altıcildik "Heydər Əliyev: Şəxsiyyət və zaman" adlı kitabının ikinci hissəsində Azərbaycanın keçmiş xarici işlər naziri Vilayət Quliyevin də xatirələrinin yer aldığı belə bir epizodla qarşılaşırıq: "...Ali dini rəhbər Heydər Əliyevi mərasim zalının girişində qarşılayıb, ikiəlli görüşdü. Aralarında Azərbaycan dilində söhbət başlandı. Həm İran nümayəndə heyəti, həm də biz sakitcə dayanıb söhbətə qulaq kəsilmişdik.

Hal-əhval tutandan sonra Heydər Əliyev Xamneyidən soruşdu:

- Yaxşı, Xamnədə (Təbriz yaxınlığında, Xamneyinin doğulduğu kənd) nə var, nə yox?

- Sən Xamnəni də bilirsən? - deyə İranın ali dini rəhbəri təəccübləndi.

- Əlbəttə, tanıyıram. Xamnə çox məşhur yerdir".

Heydər Əliyev 21 yaşı tamam olduqdan sonra, 1944-cü ilin mayından Sovet İttifaqı dövlət təhlükəsizlik orqanlarında xidmətə başlamış, 1969-cu ilin iyulunda Respublikanın rəhbəri seçilənə qədər 25 il sovet sisteminin ən mürəkkəb, məsuliyyətli, çətin cəbhəsində alnıaçıq, rəşadətlə yol keçmiş, general-mayor rütbəsinə və Azərbaycan SSR DTK-nın sədri vəzifəsinə qədər yüksəlmişdir. Bu dövrün bütün mərhələlərindəki fəaliyyətində Cənubi Azərbaycanla bağlı milli təəssübkeşlik hissi zərrə qədər gözardı edilməmiş, əksinə əhəmiyyətli məsələlərdən biri olmuşdur. Elmira Axundova yuxarıda adı keçən əsərində "Literaturnaya qazeta"da İqor Belyayev adlı şərqşünasın belə bir fikrini əsas gətirərək yazır: "Yadımdadır, məqalələrinin birində o yazmışdı ki, Heydər Əliyev 19 yaşında Şimali və Cənubi Azərbaycanı birləşdirmək haqqında düşünüb. İndi budur, 20 ildən sonra həmin ideya bu şəkildə təzədən meydana çıxıb...". Və sonradan minnətdarlıqla xatırlayır: "Elə ən maraqlısı, bu günə qədər mənimçün müəmmalı qalanlar da məhz bundan sonra başlayır. Qrupumuzdan heç kim cəzalandırılmadı, heç kimi həbs etmədilər, heç kimi institutdan qovmadılar. Mən bunu ilk növbədə Heydər Əliyevlə bağlayıram, o vaxt o, DTK-da rəhbər vəzifədə idi...".

Digər bir tədqiqatçı, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı yazır ki, "Heydər Əliyevin bilavasitə qayğısı ilə 21 Azər Günü həmişə qeyd edilirdi. Cənubi Azərbaycandan olan siyasi mühacirlərə yaxşı şərait yaradılmışdı. 1981-ci ildə siyasi mühacirlər üçün 142.500 rubl daimi yardım ayrıldı. Mühacirət cəmiyyətinin yerləşdiyi bina təmir etdirildi. Azərbaycan Demokrat Partiyasının birinci katibi Əmirəli Lahrudi 1981-ci il oktyabr ayının 28-də Heydər Əliyevə yazdığı məktubunda mühacirlərə göstərdiyi qayğıya görə təşəkkür etmişdir".

Yuxarıda adı keçən cənublu şair Söhrab Tahirin "Yaxşılıq" adlı şeiri var. Həmin şeirdə böyük öndərin şəxsiyyəti, gördüyü işlər sevgi ilə, lütf və minnətdarlıqla anılır. Həm də yalnız bu tayla bağlı deyil, o taydakı yaxşı əməllərin icraçısı və mənəvi ülfət rəmzi olaraq:

Mən rəhbərdən çox
yaxşılıq görmüşəm,
Verdiyindən hamıya pay vermişəm.
Yaxşılıqdan qızıl saray hörmüşəm,
Qal baxtımın sarayında, yaxşılıq,
O tayımda, bu tayımda yaxşılıq.

Göründüyü kimi, Heydər Əliyev hələ sovet rejimi dövründə İran İslam Respublikası ilə, Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasının əsasını qoymuş, qarşılıqlı münasibətlərin möhkəm təməlini atmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə Prezidenti Heydər Əliyevin yeni tarixi epoxada apardığı məqsədyönlü siyasət nəticəsində bu sağlam əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında"kı 29 oktyabr 1997-ci il tarixli sərəncamı xüsusi əhəmiyyətə malikdir. Həmin dövlət sərəncamı əsasında qüdrətli sənətkarın yubileyi ilə bağlı Bakıda, Tehranda və Təbrizdə keçirilən genişmiqyaslı tədbirlərlə ölkələrarası ədəbi-mədəni əlaqələr yeni və daha yüksək səviyyəyə qaldırılmışdır.

Məhəmmədhüseyn Şəhriyar Heydər Əliyevin ən çox sevdiyi şair idi. Yadıma yazıçı-dramaturq Cəfər Cabbarlı ilə bağlı bir məqam düşür. "Ən sevdiyiniz əsəriniz hansıdır", - sualına Cabbarlı "Dönüş" deyə cavab verir. "Bu ki, sizin ən zəif əsərinizdir", - deyirlər. Cabbarlı isə cavabında, "doğrudur, ana hər zaman zəif, şikəst övladını hamıdan çox istəyir", -kimi kədərli bir nüansa vurğu edir. Amma Şəhriyar təbii ki, zəif deyil, ən qüdrətli şairlərdən biri idi və Heydər Əliyev də bu üzdən, vaxtilə ona ünvanlanan 21 sualın içində yer alan "ən sevdiyiniz şair kimdir" sorğusuna Şəhriyarın adını çəkərək cavab vermişdir. O, Şəhriyarın ədəbi irsini daim yüksək qiymətləndirmiş, onu böyük vətənpərvərlik duyğularının tərənnümçüsü olan filosof şair, "Şərqin çox geniş bir regionunda insan mənəviyyatının zənginləşməsində böyük rol oynayan" mütəfəkkir adlandırmışdır. Bu mənada, sevgisinin qaynağı Şəhriyarın şeirlərindəki şairanəliyin gücünə bağlı amil idi. Amma və lakin... "Şəhriyarın ürəyi də səninki tək yaralıdır"... Bu məqam da vardı axı. Bu pillədən artıq vətən, ona həsrət qalan övladlarının obrazı, daxili yaşantıları başqa cür görünür. Bütün varlığı ilə poeziyaya, sənətə münasibətdə estet olmaqla yanaşı, həm də milli ruh daşıyıcısı olan Heydər Əliyev bu məqamda ağrımaya bilmirdi...

SİYASİ RAKURS+ÖZƏL

# SEPAH-ın və Bəsic-in təcavüzçüləri: bu dəfə hədəfdə bəluc qızlarıdır!

## Tehran rejiminin antihumanizm siyasətinin həddi-hüdudu yoxdur

**Tehran rejiminin ötən ilin sentyabrından başlayan və səngiməyən etiraz aksiyalarında fəallıq göstərənlərə qarşı repressiya və vəhşilik siyasəti tükənmir. Azadlıq və hürriyyət uğrunda mübarizə aparan etirazçılar iqtisadi və sosial tələblərini artırmaqla yanaşı, həm də fars-molla rejiminin irqçilik siyasətinə qarşı da çıxışlarını davam etdirməkdədirlər.**

Milli azlıqlara qarşı aparılan farslaşdırma siyasətinin həm də milli qürurlarına qarşı təzyiq olduğunu bəyan edən azlıq millətlər nəticə etibarı ilə həbs olunur, zindanlara atılır, onlara qarşı olmazın vəhşi üsullar tətbiq edilir. Tehran rejiminin cənginə keçənlər arasında əsas çoxluğu təşkil edənlər sırasında yalnız Cənubi Azərbaycan soydaşlarımız deyil, həmçinin bəluclar, kürdlər, ərəblər, qaşqay türkləri, türkmənlər və s. millətlər də var.

### İranın ali dini rəhbəri Xameneyi "İslam inqilabına qarşı çıxan istənilən şəxslərin öldürülməsini halal" olaraq "fətva" verməsi nəticədə digər xarakterli vəhşiliklərə də səbəb olub

Əldə edilən növbəti məlumat da qanları dondurur. Belə ki, Tehran rejiminin etirazların ən qaynar nöqtələrindən biri olan Zahedandakı fəaliyyətləri ifşa olunub. SEPAH-a və Bəsic qüvvələrinə məxsus silahlılar adıçəkilən şəhərdə etirazlar dalğasını yatırmaq üçün ən çirkin metoda əl atıblar. Onlar həbs edilmiş etnik bəluc qızlarına qarşı cinsi təcavüzkarlıq törədirlər. Əslində, fars-molla rejiminin bu kimi murdar əməllərə rəvac vermələri çoxdan məlum idi. Bir müddət əvvəl İranın ali dini rəhbəri Xameneyi "İslam



inqilabına qarşı çıxan istənilən şəxslərin öldürülməsini halal" olaraq "fətva" verməsi nəticədə digər xarakterli vəhşiliklərə də səbəb olub. Yəni SEPAH və Bəsic qüvvələri həmin "fətvanın" görünməyən tərəflərini də icra etməkdədirlər. Bu dəfə isə hədəfdə məhz bəluc qızlarıdır...

### Zindanlarda bəluc qızlarına qarşı törədilən faktlar isə, artıq beynəlxalq insan haqları təşkilatlarına göndərilib

Qeyd edək ki, Bəlucistanda insan haqlarının pozulması ilə bağlı xəbərləri ilk dəfə dərc edən "haalvsh.org" saytı olub. İnformasiyada bildirilir ki, SEPAH-ın kəşfiyyat məmurları Bəsic üzvləri ilə birgə Zahedanda bir neçə gənc qadına, həmçinin qızlara təcavüz ediblər. Adıçəkilən sayta müsahibə verən qızlardan biri onu və digər rəfiqələrini zorlayan məmurların əməlini ifşa edib. Zindanlarda bəluc qızlarına qarşı törədilən faktlar isə, artıq beynəlxalq insan haqları təşkilatlarına göndərilib.

Bəluc fəalları da deyirlər ki, SEPAH kəşfiyyatı və Bəsic qüvvələri bu bölgədə artan və səngiməyən kütləvi etirazları yatırmaq üçün gənc bəluc qadınların, qız-gəlinlərinin zorlanmasından son taktika kimi istifadə edirlər.

### SEPAH və Bəsic qüvvələrinin Təbrizdə, Ərdəbildə və s. Cənubi Azərbaycan şəhərlərində də eyni vəhşiliklər törətdikləri barədə kifayət qədər faktlar var!

Sistandan və Bəlucistandan olan qadın fəal Fəriba Bəluc və keçmiş siyasi məhbus, eyni zamanda Bəluc İnsan Haqları Təşkilatının təsisçisi Əhməd Şirani də bu faktları təsdiq edib və beynəlxalq aləmi baş verənlərə göz yummamağa çağırıb.

Xatırladaq ki, bu məlumatdan əvvəl SEPAH və Bəsic qüvvələrinin Təbrizdə, Ərdəbildə və s. Cənubi Azərbaycan şəhərlərində də eyni vəhşiliklər törətdikləri barədə kifayət qədər faktlar, məlumatlar var. Maraqlıdır ki, artıq qurduqları rejimin son zamanlarını yaşadığını dərk edən Tehran rejiminin baş mollaları get-gedə daha da aqressivləşir, rəsmi şəkildə yaşanan cinayətlərin qarşısını almaq yerinə daha da azğın qərarlar verirlər. Söz yox ki, gec-tez antihumanizm siyasətinə görə cavab verənlər olacaq və onda "peşmançılıq" hisslərinin heç bir rolu da olmayacaq. Cinayətlər törədilibsə, cəzaların da olacağı artıq danılmaz reallıqdır!

***Rövşən RƏSULOV***

# Türkiyəyə edilən yardımlar nəyə hesablanıb?

"Umumilikdə zəlzələnin baş verməsi və Türkiyənin xarici ölkələrlə münasibətlərinə təsiri iki müstəvidə təhlil edilə bilər. Burada obyektiv və subyektiv səbəblər var". Bu sözləri SİA-ya açıqlamasında politoloq Nazim Cəfərsoy danışıb. Onun sözlərinə görə, obyektiv səbəb kimi onu demək olar ki, zəlzələ və buna bənzər təbii fəlakətlər bütün ölkələrin və xalqların başına gələcək bir tragediyadır: "Bu cür proseslərdə adətən dövlətlər bir-biri ilə həmrəy olmağa çalışırlar. Çünki bu gün Türkiyənin başına gələn hadisə hər bir dövlətin qisməti ola bilər. Türkiyəyə dəstək göstərənlərin əksəriyyəti bir gün mənim də başıma gələ bilər fikri ilə məsələyə yanaşıb, dəstək göstərdilər.









Subyektiv motiv ondan ibarətdir ki, bu cür təbii fəlakətlərin baş verməsi iki dövlət arasında olan pis münasibətlərin düzəlməsinə də xidmət edir. Ölkələr bu halı bir-biri ilə olan münasibətləri normalaşdırmaq üçün istifadə edirlər. Misal olaraq zəlzələ məsələsi ilə əlaqədar olaraq İsrail ilə Türkiyə arasında uzun sürən gərginlikdən sonra normallaşmaq və yumşalma prosesinə növbəti töhfəni verən bir addım oldu. Belə ki, İsrail Azərbaycandan sonra Türkiyəyə göndərilən yardım heyətlərinin sayına görə 2-ci yerdə oldu. Daha sonra bildiyiniz kimi uzun bir müddətdir ki, Yunanıstan-Türkiyə münasibətlərində gərginlik müşahidə edilir. Bu gərginlik hətta qarşılıqlı hərbi münaqişəyə qədər yüksələ bilərdi. Bu çərçivədə Yunanıstanda baş vermiş hadisə ilə bağlı Türkiyənin yanında oldu, proseslərdə aktiv iştirak edərək müraciətlər etdi. Yunanıstan bu addımı Türkiyə üçün 1999-cu ildə baş verən zəlzələdə də etmişdir. Çünki 1999-cu il zəlzələsindən əvvəl Yunanıstanın Kenya səfirliyində Türkiyədə terror aksiyaları həyata keçirən PKK lideri Yunanıstan pasportu ilə Kenya səfirliyində yaxalanmışdır. Bu Türkiyə-Yunanıstan münasibətlərinə ciddi şəkildə zərər vurmuşdur. Yunanıstan 1999-cu ilin avqust ayında baş verən zəlzələ zamanı Türkiyə ilə münasibətlərini normallaşdırmaq üçün yardımlar etmişdir. Lakin təbii ki, Yunanıstanla Türkiyə arasında olan münasibətlərin yaxşılaşması üçün bu kimi addımlar bəs etmir.

Bu prosesdən fürsət kimi istifadə edən dövlətlərdən biri də Ermənistan oldu. Ermənistan Türkiyə ilə aralarında olan münasibətlərin normallaşması və yaxşılaşması üçün Adıyaman bölgəsinə öz xilasetmə heyətini göndərib. Atılan addımlar daxili ictimai rəydə müəyyən əngəlləri aşmaq kimi motivi də özündə normallaşdırdı".

***Banuçiçək Hüseynli***

# "Azərbaycanın Türkiyəyə dəstəyi əsası qoyulmuş ənənələrin davamıdır"

**"Azərbaycan və Türkiyə arasında münasibətlərdə qardaşlığın təzahürü olan məşhur Şuşa bəyannaməsi 2021-ci il iyunun 15 də Şuşada imzalanıb, bəyannamənin məhz 15 iyunda imzalanmasının şübhəsiz simvolik səciyyəsi var". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, həmin gün Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdış günüdür: "Bu gün ölkəmizdə 1997-ci ildən qurtuluş günü kimi qeyd olunur, Azərbaycanın Türkiyə ilə münasibətləri isə Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "Bir millət, iki dövlət "ampluası üzərində qurulub. Zəlzələdən sonra Azərbaycan, onun dövlət başçısının baş verən faciəyə münasibəti də məhz bu qardaşlığın, qarşılıqlı etimadın bariz göstəricisi, münasibətlərin vaxtilə Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" üzərində inkişaf etdirilməsinin adekvat inikası oldu. Türkiyənin xarici işlər naziri M.Çavuşoğlu



Azərbaycanın Türkiyəyə yardım təklif edən ilk ölkə olduğunu qeyd edib.

Faciədən dərhal sonra Azərbaycanın dövlət başçısı türkiyəli həmkarına telefon açaraq dövlət və xalq adından qardaş Türkiyəyə başsağlığı vermiş, faciənin doğurduğu fəlakətin acı nəticələrinin aradan qaldırılması üçün qardaş yardımını təklif etmişdi. Zamanında Türkiyə lideri Mustafa Kamal Atatürk Antantanın təcavüzünə qarşı mübarizədə Sovet Azərbaycanın rəhbəri N.Nərimanova kömək üçün müraciət edəndə Nərimanovun göstərişi ilə qardaş ölkəyə on minlərlə silah, yüz minlərlə güllə, təxminən 500 kq. qızıl yardım olaraq göndərilmişdi, Atatürkün borc vermək təklifinə isə Nərimanov "qardaş qardaşa borc verməz, əl tutar" cavabı vermişdir. Bu mənada, bu gün Azərbaycanın Türkiyəyə dəstəyi iki dövlət arasında əsası Ulu Öndər Heydər Əliyev, N.Nərimanov tərəfindən qoyulmuş ənənələrin davamıdır".

Elşən Manafov onu da bildirib ki, zəlzələdən bir neçə saat sonra Prezident İlham Əliyevin tapşırığına əsasən Türkiyəyə 200 çadır, 180 istilikqızdırıcı, 420 xilasedicinin göndərilməsi Türkiyə rəhbərliyi tərəfindən gerçək qardaş yardımı kimi dəyərləndirilmişdir.

"Ancaq Salyan və Neftçaladan qardaş ölkəyə göndərilən humanitar yardımın ümumi çəkisi 25 tondan çox olmuşdur. Ümumiyyətlə, artıq yüz tonlarla ərzaq, dərman, isti paltar və s. qardaş ölkəyə qədirbilən Azərbaycan xalqı tərəfindən göndərilmişdir, zira Türkiyənin sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir. Çanaqqalada türk və azəri oğulları birgə savaşdıqları kimi, Qarabağ uğrunda mücadiləmizdə də birgə idilər, bu, təkcə etnik və dini birliyin deyil, milli vəhdətin, dövlətlərin ümumbəşəri dəyərlərə söykənən mücadiləsinin rəmzidir".

***Gülyanə***

# Qusarda gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.





2023-cü il fevralın 16-da YAP Qusar rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzinin konfrans zalında Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda "Heydər Əliyev və Qalib Azərbaycan" mövzusunda məktəblilər arasında keçirilən inşa-yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.





MƏTANƏT

# Dərslər də başladı, dərdlər də...

**Bir ay yarım idi ki, həyat üzümüzə gülmüşdü. Ötən ilin sonlarından qış tətilinə çıxan tələbələr istirahətə getmiş, bu səbəbdən də metroda və marşrut avtobuslarda xeyli seyrəklik yaranmışdı. Bu seyrəklik də hər gün bu nəqliyyat vasitələrindən istifadə edənlər üçün əlverişli şərait yaratmışdı. Ay yarımlıq bir zaman kəsiyində Bakı sakinləri, sözün həqiqi mənasında, rahat həyat sürürdülər. Hamı diləyirdi ki, Allah, nə olar, bu günlər bitməsin...**

Lakin bitəcəkdi. Bizim istəyimizdən asılı olmayaraq bu günlər bitəcəkdi. Günlər keçib ay olacaq, yanvar tamamlanacaq, fevralın 15-i rahat, dərdsiz-qəmsiz son günümüz olmaqla tarixin arxivinə gedəcək və səhəri yeni gün-16 fevral gələcəkdi, necə ki gəldi. Gəldi və dərslər başladı. Dərslərin başlaması ilə dərdlərimiz də başladı. Yenə köhnə hamam, köhnə tas.

Səhər-səhər işə gəlirdim, inanın, metroda kütlə necə təlatümlü idisə, qatara yaxınlaşmaq mümkün deyildi. Qatar dayandı, içəridən bayıra elə bir insan axını başladı ki, bir də gördüm platformadan xeyli uzaqlaşmışam. Özümü ələ alıb yenidən qatara doğru gedəndə isə o qatar artıq çoxdan getmişdi. "Çarə nədir, ikincini gözləyim",- deyib bu dəfə lap yaxında dayandım ki, eyb etməz itələnsəm də, çox uzaqlara düşməyim. Yaxında da dayanmaq belədir ki, bunun da özünəməxsus təhlükəsi var. Bu dəfə də arxadan gələn axın səni qatarın altına sala bilər. Ona görə də nə edəcəyimi bilmirəm və düşünürəm ki, mənim kimi yüzlərlə insan da var.

Həqiqətən nə etməliyik? Bu metro və marşrutlarda günlərin bir günü həyat üzümüzə gülümsəyəcək, ya yox? Bax bu sualım cavabı illərdir ki, cavabsız qalmaqdadır. İnanıram ki, bu, hər kəsi düşündürən sualdır. Lakin hələlik nə sualımızı dinləyən var, nə də ona cavab vermək istəyində olan.

Bəs nə etməli? Nə etməli ki, metrodan, marşrut avtobuslardan insan kimi mədəni şəkildə istifadə etməli? Görəsən o günləri görəcəyik, yoxsa metroda və marşrut avtobuslarda çəkdiyimiz dərdi-qəm, stress, əsəb gərginliyi, sarsıntı, əzab, işgəncə bizləri bu dünyadan nakam aparacaq? Vallah, hələlik ki, bu sadaladıqlarım mövcuddur. Çünki sıxlıq nə qədər ki, var, günümüz belə qara olacaq, dərdimiz də çox.

Düzdür, eşitmişik ki, bu sıxlığın qarşısını almaq üçün tədbirlər həyata keçirmək fikrində olanlar var. Ancaq nə vaxt? Axı bu sıxlıq camaatı artıq təngə gətirib.

Bax, bir misal çəkim. Evdən çıxırsan, üz tutursan metroya. Biri var, səhər-səhər ürək açıqlığı ilə yaxınlaşasan, o qapıdan içəri keçəsən, biri də var, yolun yarısında səni qarşıda nələrin gözləyəcəyini düşünməkdən əsəblərin gərilə, bütün əhval-ruhiyyən səhərin bu çağında alt-üst ola. Bax get, bundan sonra işlə görüm, necə işləyəcəksən? Eləcə də marşrut avtobuslar. Elə adamlar var ki, işə, xəstəxanaya, məktəbə və yaxud bir sənəd üçün getmək üçün həm marşrut avtobuslardan, həm də metrodan istifadə etməli olur. Bax bu zaman nəqliyyat vasitələrinin birindən istifadə edənlərdən fərqli olaraq onların əsəbləri iki dəfə pozulur. Eyni sıxlıqla həm metroda, həm avtobuslarda qarşılaşdıqdan sonra mənzilbaşına çatmalı olurlar.

Son zamanlar insanlarda bir əsəbilik, gərginlik hiss olunur. Elə bunun başlıca səbəbi kimi nəqliyyat vasitələrindəki sıxlıq yetərli deyilmi? Əlbəttə, yetərlidir. İnsanı təbindən çıxaran, bəzi hallarda isə nəfəsin belə alınması mümkün olmayan sıxlıqla hər gün qarşılaşan adamda hövsələ qalamı, səbir qalarmı?

Nə isə... Uzun sözün qısası, ali və orta ixtisas məktəblərində dərslər bu gündən başladı. Dərdlər də elə bu gündən başladı. Hamı nəqliyyat vasitələrindəki sıxlığa hazır olsun. Allahdan hər kəsə səbir, dözüm diləyir, arzu edirik ki, tezliklə nəqliyyat vasitələrindəki sıxlığın qarşısını almaq üçün mühüm tədbirlər həyata keçirilsin. Hazırda metro və marşrut avtobuslardan istifadə edənlərin bundan böyük arzusu ola bilməz.

# Mən "Şarli" deyiləm!

**Qalmaqallı nəşrləri ilə tanınan fransız satirik jurnalı "Charlie Hebdo" ("Şarli Ebdo") növbəti rəsm "əsərini" dərc edib. Bu dəfə fransız nəşri Türkiyədə bu yaxında baş vermiş dağıdıcı zəlzələnin nəticələrini "əks etdirən" karikatura nümayiş etdirib. Karikatura stilində çəkilmiş rəsmdə dağılmış binalar və aşmış avtomobil təsvir olunub. Rəsmin altında isə belə bir yazı var: "Türkiyədə zəlzələ. Heç tanklar da lazım olmadı."**

Mən nə vaxtsa həmkarlarınızın - "Şarl Ebdo"nun karikaturaçı jurnalistlərinin öldürülməsinə acımışdım. Lakin çox keçmədi ki, mən bu olaya acımağıma peşiman oldum.

Yəqin ki, unutmamısınız, Fransız inqilabının bayrağı üzərində bu sözlər yazılmışdı: "Azadlıq, bərabərlik, qardaşlıq!" Bəs hanı sizin o qardaşlığınız?! Belə çıxır ki, bu qardaşlığın tam dərki mövcud deyil, o, efemerdir! Siz bütövlükdə Fransanı və onun Prezidentini də antimüsəlman olaraq tanıdırsınız.

Bir dəfə Fransanın Azərbaycandakı konsulu ilə söhbətində o, Fransa barədə mənim maraq dairəm barədə soruşdu, mən: "Fransız maarifçiliyi" - deyə ona cavab verdim. Onun: "Madam onlar bütün dünyanı aldatmışlar!" - cavabı, doğrusu, məndə çaşqınlıq yaratdı. O öz xalqının mahiyyətini necədə gözəl bilirdi. O xalqa ki, siz - özgə ağrı-acısından, fəlakətindən heroin dozası alan, ürəksiz, kinli fanatiklər də aidsiniz. Bəlkə, elə öz həmvətənlərinizə karikatura çəkəsiniz?! Qoy onda sizin şanlı Fransa tarixindən bəzi epizodları yadınıza salım. Bu, sizin qəsb etdiyiniz və keçmiş böyük Fransanı yaradan kaloniyalar dünyası haqqındadır, dünyanın böyüklüyünə görə ikici kontinentinin 35%-dən çox ərazisini 300 il ərzində nəzarətdə saxlayan Fransa haqqında. Bəs indi onlar - bu kalonyyalar nə haldadır, bilirsinizmi? Sineqal, Kot-d'İvuar və Benin qul ticarəti mərkəzinə çevrilmişdir. Müstəmləkəçilər 100 illər boyu materikin təbii sərvətlərini talan edib ölkələrinə daşımışlar. Buna qarşı hər hansı, kiçik belə olsa, üsyan amansızlıqla yatırılırdı. Bu dövr ərzində azadlıq uğrunda 2 milyonan çox afrikalı həyatını itirmiş, I Dünya Müharibəsi dövründə isə Fransız ordusunun silahı ilə bu kontinentin yüzminlərlə sakini həlak olmuşdur. Eyni zamanda Afrika ölkələrinin müstəqilliyi uğrunda mübarizə aparan yüz minlərlə insan məhs müstəmləkəçilər tərəfindən öldürülmüşdür.



*Zöhrə Əliyeva "Akademik palmalar" Ordenin kavaleri, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun fəlsəfə doktoru, dosent*

Əgər tarixi faktlardan danışırıqsa, onda, bəlkə, E.Makron əvvəlcə Fransanın Əlcəzairdə 1830-1962-ci illəri əhatə edən biyabırçı müstəmləkəçilik dövründə törətdiyi soyqırımı etiraf etsin?! Əlcəzair mənbələri əhalinin 1-1.5 mln.-nun öldürüldüyü, 3 mln.-nun isə konsentrasiya düşərgələrinə köçürüldüyü barədə məlumatlar verirdilər. Mən sizə son zamanların hadisələrini xatırlatmaq istərdim; Bax o hadisələrə karikatura çəkmək lazımdır, Məhəmməd Peyğəmbərə (s.ə.s.), yaxud Türkiyədəki fəlakətli zəlzələyə yox!

1940-cı il 02 oktyabr tarixində Vişi rejimi yəhudilərin hərəkətinin məhdudlaşdırılması, ictimai yerlərə girişinə və peşə fəaliyyətinə məhdudiyyət qoyulması barədə "Yəhudilər haqqında" ilk Dekret" (Status de juifs) qəbul etdi. 1941-ci ildə isə yəhudilərin vəziyyətini daha da ağırlaşdıran 2-ci Dekret qəbul olundu. Bir çox fransız həmin dövrdə yəhudilərin şəxsiyyətinin müəyyənləşdirilməsi və onların nasistlərə təhvil verilməsində könüllü və fəal şəkildə iştirak edirdi. 1941-ci il 29 mart tarixində işğal olunmuş ərazilərdə Ksavye Vallın başçılığı altında yə- hudilərin əmlaklarının nasistlərin əlinə keçməsində iştirak edən Yəhudi məsələləri üzrə Baş komisariat yaradıldı. 1942-ci ilin 6 mayından etibarən həmin komissariata Lui Darkye de Pellipua başçılıq etdi, o da "azad zona"da eynən bu fəaliyyətlə məşğul olmağa başladı.

İndi isə həmin dövrdə türklərin nə etdiyi barədə sizə söyləyim. 1940-cı illərdə Türkiyənin Fransadakı səfiri Behiç Erkin öz həyatını, vəzifəsini risk altına qoyaraq nasist işğalı altında olan Fransa dövlətinin təzyiqlərinə baxmayaraq, 18200 Fransa yəhudisinə, böyük çətinliklə də olsa, Türkiyə pasportları verə bilmişdir. Minlərlə yəhudi o zaman Türkiyə ərazisinə məhz bu pasportlarla gəlmiş və ölümün pəncəsindən xilas ola bilmişdi. Bu xüsusda bir faktı da nəzərinizə çatdırım. XV əsrdə minlərlə yəhudinin Sultan II Bəyazid tərəfindən ispan inkvizisiyasından xilas edildiyi və Osmanlı imperiyası ərazilərinə köçürüldüyü barədə məlumat verən unikal tarixi sənədlər mövcuddur. Bir tarixi faktı da deyim ki, II Dünya müharibəsi dövründə Türkiyənin Marseldəki vitse-konsulu Nejdet Kent biləndə ki, Marseldə yaşayan 80 nəfər Türkiyə yəhudisini heyvanlar üçün nəzərdə tutlan vaqonlara yükləyərək nasist düşərgələrinə aparırlar, həmən gestapoçu alman zabitindən onların dərhal azad olunmasini tələb etmişdir. O, qəti şəkildə bildirmişdir ki, onlar Türkiyə vətəndaşlarıdır,Türkiyə isə müharibədə iştirak etmir. Alman zabiti ona: "Orada Türkiyə vətəndaşları yoxdur, yalnız yəhudilərdir!" - deyə cavab vermişdir. O zaman Nejdet Kent və köməkçisi həmin vaqona minmiş və nasistlərin tələbinə baxmayaraq, vaqondan düşməkdən imtina etmişlər. Artıq növbəti stansiyada bir qrup alman zabiti vaqona qalxaraq Nejdet Kentdən üzr istəyərək, onun Marselə dönməsini xahiş etmiş, hətta bunun üçün avtomobil də gətirmişdilər. Lakin Kent öz qərarında israrlı idi. "Mən insanları dini və etnik mənsubiyyətinə görə bölünməsinə qarşı çıxan dünyəvi Türkiyə dövlətinin nümayəndəsi olaraq, bu insanları burada qoya və açıq-aydın ölümə göndərə bilmərəm!" - deyə, Türkiyə vitsekonsulu qəti şəkildə bildirmişdir. Onun bu barışmaz mövqeyinə heyrət edən nasistlər nəticədə qatarın Türkiyəyə getməsinə icazə vermişlər.

Mən tarixin bu səhifəsini ona görə yada saldım ki, İsrail dövləti də Türkiyənin çətin anında ona ilk yardım edənlərdən oldu. Onlar öz qardaşlıq və minnətdarlıqlarını bayraqdaki sözlərlə deyil , əməllə göstərdilər.

Türkiyə böyük dövlətdir - o bu bəlanın da öhdəsindən gələcək! Amma sizin "Türkiyədə zəlzələ. Heç tanklar da lazım olmadı" sözləri ilə müşaiyət olunan karikaturanız yaddaşlardan silinəcəkmi?

Bir zamanlar yeganə "imanlı Papa" (hamı onu belə adlandırırdı) olan II İoann Pavel səlib yürüşlərinə görə müsəlmanlar qarşısında tövbə etmişdi. O, işıqlı insan idi və başa düşürdü ki, "biz sizin kimi deyilik".... Homoseksualizm və digər ağrılı pozğunluqlar Avropada cəsarət göstəricisi olduğu halda, İsa Məsih və Məhəmməd Peyğəmbər (s.ə.s.) isə şüur və qəlbərdən silinmişlər. Yaşayın, necə bacarırsınız, "əziz" karikaturaçılar! Qoy ulu Tanrı özü ayırd etsin kim kimdir...

Siz fataniksiniz. Sizi ifşa etmək gərəkdir! O da şübhəsizdir ki, belə bir facią ilə siz üzləşsəydiniz, bütün Türk dünyası köməyinizə tələsərdi.

Sizə - Volterin, Robespyerin, Şarl de Qolun həmvətənlərinə üz tutaraq soruşuram: "Deyin görüm, aranızda mənə etiraz etməyə cürət edə biləcək azad insan tapılacqmı?"....

Məqalə 09.02.2023-cü ildə "Şarl Ebdo" nəşriyyatına təqdim edilib.

# "Azərbaycanın öz qanuni tələblərini reallaşdırmasına çox az vaxt qaldı"

**"Xankəndi yolunda QHT fəallarının iki aydan artıq müddətdə davam edən aksiyası tariximizin ən şanlı səhifələrindən biridir". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**

Onun sözlərinə görə, bu aksiya Azərbaycanın Qarabağ üzərində suverenliyinin tam təmin olunması istiqamətində atılan birinci addımdır: "Arxasınca digər addımlar da gələcək. Hamının etiraf etdiyi kimi bu aksiya son dərəcə uğurlu oldu və bir sıra mühüm məsələlərin aşkara çıxmasına imkan verdi. Hamı gördü ki, Azərbaycan hətta hərbi qüvvələri cəlb etmədən də Laçın dəhlizini nəzarətə götürə bilər və oradan keçən yüklərin ciddi şəkildə yoxlanılmasını təşkil edə bilər. İkinci mühüm məqam rus sülhməramlılarının mütləq gücünə olan inam sarsıldı və hamı gördü ki, yeri gələndə onlarla kifayət qədər sərt davranmaq olar və 10 noyabr sazişindən irəli gələn öhdəliklərin icrasını qəti şəkildə tələb etmək olar. Ermənilər anladılar ki, növbəti addım Laçın dəhlizində gömrük postunun və sərhəd xidmətinin yerləşməsi olacaq. Bu addımın atılmasına mane olacaq heç bir razılaşma yoxdur".






A.Səmədov onu da bildirdi ki, 10 noyabr sazişində gömrük və sərhəd xidmətinin Laçın dəhlizində yerləşməsi müddəaları yer alır: "Erməniləri ən çox qorxudan da budur. Əvvəl monitorinqə qəti etiraz edirdilər. İndi beynəlxalq mütəxəssislərin Qarabağdakı qızıl, mis və molibden mədənlərini monitorinqinin keçirməyinə razılıq verir. Ancaq təbiidir ki, Azərbaycan bunu eləmir və eləməyəcəkdir. Monitorinqi Azərbaycan mütəxəssisləri keçirməlidirlər və yalnız bundan sonra aksiyanın dayandırılması barədə danışıqlar aparmaq mümkündür. Monitorinq mütləq keçirilməlidir. Ancaq hətta ermənilər bu addımı atmaq məcburiyyətində qalsalar belə, arxasınca Azərbaycanın növbəti addımları gələcək. Ötən il Praqada və Soçidə Ermənistan, Fransa, Avropa İttifaqı, Rusiya Azərbaycanın suverenliyini təsdiq edən sənədin altından qol çəkdilər və heç kim Azərbaycanın öz ərazisində o cümlədən, Qarabağda suverenliyini birmənalı şəkildə təmin etməyinə mane ola bilməz. Ermənilər nə qədər qorxsalar da, nə qədər çəkinsələr də və nə qədər təxribatlar törətsələr də, Azərbaycanın öz qanunu tələblərinin reallaşdırmasına çox az vaxt qaldı".




***Gülyanə***



# Bir gecənin soyqırımı





1992-ci ilin 26 fevral qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən işğal edildi. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Beləliklə, soyuq və qarlı fevral gecəsində minlərlə dinc sakin girov götürüldü. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Xocalıda törədilən əməllər BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə zidd idir.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

## SOYQIRIMI SÜLH VƏ BƏŞƏRİYYƏT ƏLEYHİNƏ YÖNƏLƏN ƏMƏLDİR

Azərbaycan öz haqq səsini ucaldır və dünya ictimaiyyətini hadisələrlə düzgün məlumatlandırır. Heydər Əliyev Fondunun dəstəyi ilə artıq neçə illərdir ki, "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirlər keçirilir. Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn tədbirlər müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının iştirakı ilə keçirilir. Braziliyada, Londonda, Koreyada və onlarla dünya ölkələrində Azərbaycan həqiqətləri müxtəlif şəkildə təqdim edilib. Bütün bunlarla yanaşı, Koreya dilində Xocalı soyqırımı haqqında videoçarx hazırlanaraq, ən böyük axtarış saytı olan "Naver", eləcə də "Google" və "Youtube"da yerləşdirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində "Müharibə cinayətinin Xocalı şahidi. Ermənistan müttəhim kürsüsündə" adlı kitab da çapdan çıxıb.

Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 20-dən artıq ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayətdir. Artıq Xocalı faciəsinin 31-ci ildönümünü yaşasaq da, hələ də Azərbaycanın vətəndaşları o dəhşətli, faciəli gecəni, xalqımızın başına gətirilən bəlaları unutmayıb.

Bu nə nağıldır, nə hekayə, nə də əfsanə. Nə də ki, təbii fəlakət nəticəsində baş verən faciə. Bu sivil dünyada yaşadığımız əqli ilə kosmosa uçuş edən, elmi axtarışları ilə yerin altını, dərinliklərini öyrənən müasir dünya "insan"ının törətdiyi vəhşilikdir. Tarixdə görünməyən bir vəhşilik: bir gecədə məhv edilən şəhər. Azərbaycan xalqının genetik yaddaşında, tariximizdə yer almış Xocalı soyqırımı. İllərdir bu soyqırımının ağır nəticələrini yaşatdığı faciənin acısını, iztirabını və zülmünü yaşayırıq. Artıq oradan yeni doğulmuş və sağ çıxmış bir körpənin bu gün 31 yaşı var. 31 il. Bir insan ömrü, insan taleyi. İşgəncələr yaşamış, doğmalarının ölümü gözü qarşısında olan, qışın sazağında donub məhv olan insan ömürlərini vərəqlədikcə dəhşət səni bürüyür. Necə ola bilər ki, bir gecənin içində şəhər məhv olsun? Bu ağrılı olsa da bir həqiqətdir. Zaman baxımından uzun müddət olmasa da insanların yaşadığı böyük faciə sanki onlara bir əsrin ağrısını yaşatmış oldu. Soyqırım etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsi olduğundan ermənilərin törətdikləri Xocalı soyqırımı da məhz bu məqsədi daşıyırdı. Bütün tarixi dövrlərdə soyqırım bəşəriyyətin amansız böyük itkisi sayılıb. Beynəlxalq hüquq normalarına görə, soyqırımı törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Ermənilərin azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir. Odur ki, ermənilər törətdikləri cinayətə görə, beynəlxalq trubunalardan mühakimə olunmalı və iç üzləri dünya ictmaiyyətinə təqdim edilməlidir.

## "XOCALI SOYQIRIMI GÜNÜ" ELAN EDİLDİ

Dünya tarixində nə qədər qətliamlar, soyqırımlar olsa da, Azərbaycanda baş verən Xocalı soyqırımı yanında sönük görünür. Bir gecədə insanların vəhşicəsinə məhvi, şəhərin yerlə-yeksan edilməsi insanlığa sığmayan vəhşiliyin təzahürüdür. Uşaq, qoca və hamilə qadınlara qarşı qəddarlıq insanlığa qarşı törədilmiş bəşəri cinayətdir. Beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımı xalqımızın növbəti faciəsini yaşadığı bir tarixdir. Xocalı haqqında həqiqətin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmiş, fevralın 26-sı "Xocalı soyqırımı günü" elan edilmişdir.

## TARİXİMİZDƏN DANIŞAN SƏNƏDLƏR

Tarixin dönəmlərinə bir daha nəzər salaq. Tarixi reallıqlar bizə deməyə əsas verir ki, 1917-ci ildə Rusiyada çar hökuməti devrildikdən sonra, Almaniya və Avstriya cəbhələrində xidmət edən minlərlə erməni əsgəri öz silahları ilə daşnaqların niyyətlərini həyata keçirmək üçün Bakıda cəmləşiblər. Bəzən böyük dövlətlər müharibə ocaqlarının yaranmasında ermənilərdən istifadə ediblər. 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Cənubi Qafqazdakı tarixi ərazilərində etnik təmizlənmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə Azərbaycan türkləri, erməni daşnakları tərəfindən kütləvi surətdə qətllərə yetirilmiş, ata-baba yurdlarından deportasiyalara məruz qalmışlar. Azərbaycanın taleyi ilə bağlı olan bu tarixi məsələlərin öyrənilməsi 70 ildən çox müddətdə qadağan edilmiş, tədqiqatçılar məxfi arxivlərə yaxın buraxılmamışdır. XX əsrin əvvəllərində türklərin başlarına gətirdikləri qanlı faciələrdən doymayan ermənilər, illər uzunu fürsət düşdükcə, xaricdəki türk diplomatlarına və iş adamlarına qarşı terror əməliyyatları aparmışlar. 1918-ci ilin 30 mart-3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın tariximizdən silinməyəcək. Rəsmi mənbələrə görə, 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı bu dəhşət hadisələr sırasındadır. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir. Onların çoxunun meyitləri tapılmamışdır. Hadisənin şahidlərinin dediklərinə görə, ermənilər meyidləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Azərbaycan Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırım Günü kimi qeyd olunur.

Ötən əsrdə qeyd etdiyimiz kimi, 1905-1906, 1918-1920, 1948-1953-cü illərdə baş verən hadisələrdən sonra 1988-1989-cu illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti onların çirkin niyyətini bir daha təsdiqləmiş oldu. Xocalı soyqırımında baş verənlər günahsız insanların faciəsidir. Xocalı 1991-ci il noyabrın 1-dən 1992-ci il fevralın 25-nə qədər mühasirə şəraitində qaldı. Bütün əlaqələr vertolyotla, telefonla qurulurdu. Hadisə baş verəndə qaçıb canını qurtarmaq istəyən Xocalı sakinlərinin qabaqcadan xüsusi düzəldilmiş pusqulardan avtomat, pulemyot və digər silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırımı niyyətini bir daha sübuta yetirir.

## 8 AİLƏ TAMAMİLƏ MƏHV EDİLDİ

*Zümrüd BAYRAMOVA*

# KTMT-nin qatlanan çətiri

## *Yaxud Qafqazda kim kimdir?*

***Erməni millətçiliyinin uzun illər hazırlaşdığı, hətta Sovet hakimiyyəti illərində bir neçə dəfə mərkəzi hakimiyyətə Azərbaycan torpaqlarının Ermənistana verilməsi, o cümlədən bu respublikada yaşayan azərbaycanlıların köçürülməsi ilə bağlı tərtib etdiyi ssenarilər qismən, həm də qanunsuz olaraq, azərbaycanlılardan soruşulmadan həyata keçirilməsi prosesi SSRİ-nin dağılması ərəfəsində daha da şiddətləndi. Mərkəzi hakimiyyətin hər dəfə zəifləməsi ermənilərə yeni imkanlar yaratdı. Çar Rusiyasının süqutu ilə Ermənistan dövləti yaradıldısa, SSRİ adlı proletariat diktaturasının - imperiyanın dağılması ilə ermənilər yeni torpaqlar ələ keçirmək üçün hərəkətə keçdilər. Hər iki dönəmdə mərkəz - Moskva susmağa, erməni vandallığına tamaşa etməyə üstünlük verdi.***

35 il əvvəl də ermənilərin müəllifliyi ilə yazılan daha qəddar ssenari həyata keçirildi. Azərbaycan torpaqlarının ələ keçirilməsinə rəvac verən bir hadisə yaşandı, Sumqayıtda elə ermənilərin icrası ilə erməni millətindən olan 14 sumqayıtlı öz evində vəhşicəsinə öldürüldü. Qriqoryan adlı Sumqayıt ermənisinin törətdikləri qəddarlıqlar, qətl hadisələri bir müddət keçəcək azərbaycanlı Əhmədovun üzərinə qoyularaq onu ən ağır cəzaya məhkum edəcəklər. Dünya mətbuatı məhz erməni ssenarisinə uyğun olaraq



Bu, elə bir prosesdir ki, bu qədər çox sayda problem yaranır, hətta demək olar ki, yaxın gələcəkdə tamamilə həlli mümkün olmayan problemlər. Təsəvvür edin ki, bir saziş imzalanacaq ki, Rusiya sülhməramlıları Qarabağı tərk edəcək. Türkiyənin etirazları olsa da Azərbaycanın razılığını alaraq Qarabağa Skandinaviya ölkələrini, Fransa və ya Paraqvayın sülhməramlıları yerləşdirilir. Bu reallıqlar Rusiya və Qərbin toqquşan maraqlarını nəzərə almadan mümkündürmü? Əlbəttə yox. Bu hesablamalar yalnız evdar qadınlar üçündür. Belə mövzularda ciddi danışmaq sadəcə mümkün deyil.

İkincisi, təhlükəsizlik təminatçıları baxımından müxtəlif xarici qüvvələri müqayisə etmək də mümkün deyil. Biz başa düşürük ki, Rusiya dürüst araçı, vasitəçi deyil və ola da bilməz. Rusiya oyunçudur. Rusiya çox uzun müddətdir regionumuzda öz maraqlarına malik olan və bunda müəyyən rol oynayan müxtəlif cəhətlərdən nəhəng ölkədir. Bu yanaşma Türkiyəyə də aiddir. Bu mənada heç bir Fransa, Hollandiya və hətta İngiltərə bu gün Qarabağda Rusiyanı əvəz edə bilməz. Onlar "geostrateji" olaraq sadəcə fərqlidirlər. Onların heç biri Cənubi Qafqaz ölkələrinə təhlükəsizlik təklifi etmir və bu olduqca təbiidir.

Üçüncüsü, Ermənistanda komplementarizm konsepsiyasını həyata keçirmək cəhdi var. Yəni bütün tərəflərlə balanslaşdırılmış şəkildə, yəni müstəqil əlaqə qurmaq ideyası var. Ermənistan rəhbərliyi düşünür ki, bu konsepsiya pisdən yaxşıdır. Bölgədə nə qə-





Azərbaycanda ermənilərə qarşı ayrı seçkiliyin olduğundan və onları kütləvi qətlə yetirilməsindən yazacaqdı. Azərbaycanın başqa bir guşəsində, ermənilərin kompakt yaşadığı Qarabağda ( o vaxt Dağlıq Qarabağ Muxtar Vilayəti idi) erməni separatçıları vilayəti Azərbaycandan qoparmaq planını icra etməkdə idilər. Xankəndidə və ətraf rayonlarda erməni əhali silahlanır, azərbaycanlılara hücumlar edir, onları öz ata-baba yurdlarından qovurdular. Hər gün bir qara xəbər gəlirdi, kəndlər ard-arda boşalırdı. Bakıda oturan hakimiyyət nümayəndələri isə toqquşmalardan yayınmaq, milli zəmində münaqişənin alovlanmaması üçün unikal metoda əl atırdı: kənd sakinlərindən quş tüfəngləri də yığılırdı. Ermənilər isə bu zaman Sovet (Rusiya) ordusunun silah anbarlarına hücum edib ağır silah və texnikaları ələ keçirirdilər. "Bizimkilər" isə hələ də ov tüfənglərini yığıb qurtarmağa çalışırdılar...

Bəli, olanlar oldu, 1993-cü ilin sonuna qədər Ermənistan Qarabağ və ətraf rayonları ələ keçirməklə burada separatçı rejim yarada bildi. Kimin dəstəyi ilə, bu, artıq bəllidir. Amma dünya birliyi ermənilərin açıq təcavüzünü, işğalını görməzdən gəldi, harayımıza hay demədi. Əvəzində, "hay"lara dəstək vermək, işğalı legitimləşdirmək, ikinci erməni dövləti qurmaq üçün ATƏT-in "Minsk qrupu" adlı qondarma qurum təsis etdi və 25 il Azərbaycanı bütün imkanları ilə Qarabağ və ətraf ərazilərdən, konkret desək 20 faiz ərazilərindən imtina etməyə çalışdı. Hətta iş o yerə çatdı ki, indiyədək separatçı çıxışlara qarşı birlik nümayiş etdirən Qərb və xristian dövlətləri ailəsi nədənsə Ermənistan faktorunda fərli münasibət göstərdilər. ATƏT-in "Minsk qrupu" davanın Ermənistan-Azərbaycan kontekstindən çıxararaq daha çox "xalqların öz müqəddəratını təyinetmə hüququ" termini ətrafında iş qurdular. Öz ərazilərində separatçılığa qarşı əsl səlib yürüşü aparan dövlətlər, Azərbaycana gəldikdə insan haqları, xalqların seçimi məsələsini gündəmdə saxlamağa və dolayısı ilə iqtisadi inkişaf perspektivli ölkəmizə qarşı təzyiq yolunu tutmağa çalışdılar.

Bu gün Qarabağ ətrafında dünyada analoqu olmayan oyunlar qurulur, tərtiblənir, yeniləri layihələndirilir. Məqsən isə eynidir, nə Qərbə, nə Rusiyaya, nə də İrana ermənilərin taleyi maraqlı deyil. Bu qədər ermənisevər olsalar öz ölkələrində bunu edərlər. Bəs, məsələnin kökündə nə dayanır? Niyə Avropanın bəzi ölkələri, Rusiya, ABŞ, bəzi beynəlxalq təşkilatlar, Avropa institutları ermənilərdən belə bərk yapışıblar, onları işğalçı olmalarına, bütün beynəlxalq prinsipləri çeynəmələrinə rəğmən dəstəkləyirlər? Əlbəttə, bütün bu yanaşmaların kökündə zəngin Azərbaycanı ram etmək niyyəti dayanır.

Ermənistan Azərbaycan torpaqlarından qovuldu, 44 günlük müharibə erməni iddialarına son qoydu. Bununla paralel Ermənistanın haqqında danışdığımız dostlarının da planları puç oldu. Ölkəmizin mövqeyi bir az da möhkəmləndi, indi biz qalib ölkəyik, suveren ərazilərimizin hər yerinə sahibik. Amma bəlli dairələr hələ də ümidlidirlər, Qarabağın ermənilər yaşayan kiçik bir kəsimində hadisələrin məqsədəmüvafiq şəkildə dəyişəcəyinə ümidlənirlər. Ona görə də bütün imkanları ilə öz platformalarından Azərbaycanın üzərinə gəlməyə can atırlar. Amma beynəlxalq münasibətlər sistemində mövcud yanaşmaları əzib keçə bilmirlər. Düzdür, bunların bir qismini artıq əziblər, lakin əzilməyən dəyərlər hələ də var.

Ermənistanda ümid edirdilər ki, Rusiya bu müharibədə də onlara dəstək olacaq. Hətta oldu da deyə bilərik, amma ermənilərin iddiaları onu göstərir ki, ruslar və Putinli Rusiya onları satıb, Ermənistana lazımi dəstək göstərməyib. Bu cümlədə gizlənən kiçik bir sirri də açmalı olacağıq, sən demə, Rusiya silahlı qüvvələri bütün arsenalı ilə I Qarabağ müharibəsində olduğu kimi, ermənilərin əvəzinə döyüşməli imiş. Bu fikir başqa ölkələrə - Ermənistana dost olan dövlətlərə də aiddir. Hətta, Ermənistanın da üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) adlı hərbi blok Azərbaycana qarşı vuruşmalı imiş. İndi "hay"ların qondarma ölkəsində bu məsələ gündəlikdədir, hər kəs bundan danışır. Hətta dostlarını KTMT çətirindən çıxacaqları və başqa çətir altına girəcəkləri ilə hədələyirlər. Bəs yeni çətirin sahibi kimdir və o nə qədər etibarlıdır? Rusiyanın və digər regional dövlətlərin məsələyə münasibəti necədir?

Qafqaz İnstitutunun direktoru, politoloq Aleksandr İskəndəryan bildirib ki, hazırda təhlükəsizlik çətirinin dəyişdirilməsindən danışmaq mümkün deyil. Birincisi, bu, kifayət qədər ciddi və uzun prosesdir və qarderobu açıb köynəyi dəyişməyə bənzəməz.

dər çox oyunçu olsa bir o qədər yaxşıdır prinsipi. Amma komplementarizm 30 faiz deyil, 70 faiz olduqda özünü doğruldur. Bu gün Ermənistan bu mövqedən çıxış edərək çalışır ki, Rusiya və Qərb əsgərlərini eyni vaxtda Qarabağ ətrafında və ya Ermənistan Respublikasının sərhəddində yerləşdirsin. Bunu, əlbəttə təsəvvür etmək çətindir.

Amma bugünkü vəziyyət 10-15 il əvvəlki vəziyyət deyil. İndiki məqamda bir-birini tamamlayan siyasətin aparılması xeyli çətinləşib. Oyunçular arasında rəqabət və qısqanclıq kimi anlayışlar həddən artıq kəskinləşib. Türkiyənin regional maraqları da nəzərə alınmalıdır. Türkiyə bölgədə mövqelərini gücləndirmək niyyətini gizlətmir. Türkiyə uzun müddətdir, SSRİ dağılandan bəri və ondan əvvəl də iqtisadi, humanitar, mədəni, ideoloji mənada yumşaq güc kimi Cənubi Qafqazdadır. Azərbaycan da öz növbəsində investor kimi Türkiyədə çox layiqli şəkildə təmsil olunur. Türkiyə Gürcüstanda çox ciddi şəkildə təmsil olunur. 2020-ci il müharibəsindən sonra Türkiyə artıq strateji mənada, təhlükəsizlik baxımından Qafqazda mövcud olmağa başlayıb.

Və beləliklə, Ermənistan KTMT çətirindən yaxa qurtarmağa, özünə, necə deyərlər başqa adaxlı axtarmağa başlayıb. Amma tapdığını regiona gətirəcək gücü yoxdur. Hələ də, gah Rusiyanın, gah da Qərbin çaldığı fransız havalarına züy tutmağa məcburdur. Təki Rusiyanın "NATO"su sayılan KTMT-dən qurtula bilsin...

***V.VƏLİYEV***

# Pullu polietilen paketlər: Ekologiyanı qorumaq, yoxsa...

**Ekspertlər: Bu paketlərə alternativlər təklif olunmasa effekt verməyəcək, ənənəvi paketlərə və qablaşdırılmalara qayıdılmalıdır**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

Fevralın 15-dən etibarən mağazalarda polietilen torbaların pulla verilməsi əhalidə narazılıq yaradıb və sosial şəbəkələrdə bu tənqid olunur. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən iri market şəbəkələrinə göndərilən məktubda qeyd olunub ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müraciəti əsasında qalınlığı 15-20 mikron olan yüngülçəkili polietilen torbaların nəzarət-kassa aparatlarında ayrıca məhsul növü kimi təqdim edilməsi üçün təcili tədbir görülsün. Nəticədə, mağazalar bu paketləri 3-5 qəpikdən satmağa başlayıb.

Məlumdur ki, ölkədə inflyasiya davam edir, istehlak məhsullarının və xidmətlərin qiyməti artır. Nəticədə əhalinin xərcləri də artır. Belə bir şəraitdə polietilen torbaların pulla satılması nə dərəcədə düzgündür? Bunda ekologiyanı qorumaq məqsədi göstərilsə də, bu vəziyyət ekologiyanın qorunması istiqamətində ciddi nəticə verməyəcək. Belə ki, insanlar yenə o paketləri götürməli olacaq, sadəcə, indi bunun üçün pul ödəməli olacaq. Paketlərin biri 3-5 qəpiyə satılır, lakin bu paketlərin dəyərinin 1 qəpik belə təşkil etmədiyi məlumdur.

Polietilen paketlərin və plastik qabların ləğv edilməsi təklifləri ekoloqlar və sosioloqlar tərəfindən uzun illərdir irəli sürülür. Mən də bu haqda son 15 ildə mediada onlarla yazı və müsahibə ilə çıxış etmişəm. Yazılarımızda bu prosesin optimal və effektiv həyata keçirilməsi qaydalarının göstərmişik, bəzi ölkələrin təcrübəsindən misallar gətirmişik. Lakin bu təkliflərin heç biri nəzərə alınmayıb və proses sadəcə pulsuz verilməli olan bir məhsulun indi pulla satılması haqda qərarla yekunlaşıb. Bir neçə il əvvəl ekologiyanın qorunması məqsədilə adıçəkilən məhsulun tamamilə ləğv edilməsi gündəmdə idi. Polietilen torbaları isə kağız və ya parça torbalar əvəz etməli idi. Keçən il buna bir cəhd də göstərildi. Ancaq bu məsələ elə söz olaraq qaldı.

Çünki plansız tətbiq olunmuşdu. İndi isə heç bir hazırlıq olmadan birbaşa qərar verildi. Heç bir alternativ təklif etmədən belə bir qərarın verilməsi ən azı biabırçılıqdır.

”Yaşıl Dünya” Ekoloji Maarifləndirmə İctimai Birliyinin rəhbəri Elman Cəfərli deyir ki, hazırda dünyanın ekologiyasına ən böyük zərər vurulan sahələrdən biri də budur: ”Plastik və polietilen materiallar 5-10 əsr ərzində çürümür və torpağı, suyu zəhərləyir. Bu məhsullar yandırıldıqda da havanı zəhərləyir. Bu, çox dəhşətli problemlərə gətirəcək. Dənizlərdə, okeanlarda göz işlədikcə uzanıb gedən nəhəng plastik hövzələri var. Bəzi quru ərazilərdə isə plastik zibil çölləri uzanıb gedir”.

Ekoloqun fikrincə, bu materiallar təkcə insanlara deyil, həm də heyvanlara ciddi zərər vurur: ”Aparılan araşdırmalara görə, okeanda səfərdə olan gəmilər ildə 4 milyon kiloqram polietilen torbanı dənizə atır. Okeanlardakı, dənizlərdəki balıqların 40 faizinin mədəsində plastik maddələr olduğu güman edilir. Dənizlərə atılmış sellofan torbaları delfin, fok, balina, çanaqlı bağalar və bu kimi bir çox dəniz heyvanları yemək sanıb yeyirlər. Bu da onların həzm sistemlərinin pozulmasına



gətirib çıxarır və kütləvi ölümlərinə səbəb olur”.

Aparılan ən son araşdırma zamanı məlum oldu ki, hər il dünyada 1 trilyon sellofan torba istehsal edilir. Dünyada hər 1 dəqiqədə isə 1 milyon polietilen torba zibil qutusuna atılır. Polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il lazım gəlir.

İnsanların plastik qablarda yemək və su qəbul etməsi nəticəsində, milyardlarla plastik partikullar onların orqanizminə daxil olur. Kanadada, Rusiyada, Belçikada aparılan araşdırmalar zamanı insanların orqanizmində plastik hissəciklərin təhlükəli həddə çatdığı ortaya çıxıb.

Polietilen torbalar içərisində və plastik qablarda saxlanan bütün növ qidaların vitaminləri də məhv olur. Artıq dünyanın bir sıra ölkələrində yeməklərin, xüsusilə də isti yeməklərin plastik qablarda verilməsindən tam imtina olunub. Bir çox ölkələrdə içmək üçün istifadə edilən suyun da plastik qablarda satışına qadağa qoyulub.

Ekspertlər deyir ki, əgər siz evə, iş yerinə yemək sifariş edirsinizsə, heç bir halda onu plastik qablarda qəbul etməyin. Xüsusən də, uşaqları plastik qablarda saxlanan yeməkdən və sudan aralı tutmaq lazımdır. Yeməklərin keyfiyyəti yüksək olsa belə, bu qidaların qoyulduğu birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik qablar istilik zamanı öz tərkibində olan zərərli kimyəvi maddələri yeməyə və ya içkiyə buraxır. Nəticədə xəbərimiz olmadan orqanizmimizi qidalandırmaq əvəzinə zəhərləyirik. Hətta bəzi hallarda insanlar yeməyi birdəfəlik qablarda mikrodalğalı sobalarda qızdırırlar. Bu isə qabların kimyəvi tərkibinin yeməyə qarışmasını daha da sürətləndirir.

Rusiyada aparılan araşdırmalar zamanı məlum olub ki, əmziklər və uşaqlar üçün süd butulkaları başda olmaqla bir çox plastik məhsulda istifadə edilən ”BPA” maddəsi yeniyetmə və uşaqların, xüsusilə də 1 yaşadək körpələrin inkişafına mənfi təsir edir.

İstehlakçıya təklif edilən əmziklərin çoxu, ”Bisfenol A” tərkibli polikarbonatdan istehsal olunur. ”Bisfenol A”, əmziyin içindəki mayeyə keçə bilən, hormon sisteminə zərər verən kimyəvi maddədir. Bu maddə körpə əmzikləri ilə yanaşı, su şüşələrində, tibbi cihazlarda, idman ləvazimatlarında, plastik plastik stəkanlar kimi bir çox məhsulda var.

Son araşdırmalara görə Amerikada insanların 93%-nin qanında ”Bisfenol A” var. Bu ölkədə satılan hər 10 əmzikdən 9-da BPA tapılıb. Ölümcül təhlükə yaratdığı üçün ABŞ, Kanada, Danimarka, Fransa, İtaliya olmaq üzrə dünyanın bir çox ölkəsində istehsalı dayandırılan əmziklər, plastik süd və su şüşələr həzm sistemində problemlər, immunitet zəifliyi, psixi problemlər, piylənmə, hiperaktivlik, ürək xəstəliyi, qızlarda döş xərçəngi və sonsuzluq kimi xəstəliklərə səbəb olur.

İngiltərə, Hindistan, Keniya, Uqanda, Fransa, Amerika, Latviya və bu kimi bir çox ölkələrdə sellofan-plastik-polietilen torbaların istifadəsinə icazə verilmir. Gürcüstan da 2020-ci ildən bu məhsulların qadağan edilməsinə qərar verib.

Dünyada bu sahədə vəziyyət o qədər sürətlə pisləşir ki, yaxın bir neçə ildə bu cür kimyəvi birdəfəlik məhsulların istehsalı qadağan ediləbilər. Hələlik isə, biz mümkün qədər onlardan az istifadə etməliyik. Ən yaxşı çıxış yolu onlardan imtinadır, amma bunu necə etməli?

Əksər ekspertlər bu fikirdədirlər ki, Sovet dövründə istifadə olunan şüşə, parça, kağız, karton qablaşdırmalara qayıtmaq lazımdır. Birdəfəlik qablar həm israfçılıq və həm də zərərlidir. O vaxt şüşə butulka və banka qəbulu məntəqələri var idi. İndi də bu işi təşkil etmək olar. İnsanlar bazar-dukana gedəndə parçadan və ya brezentdən hazırlanmış torbalar götürürdülər, mağazalarda isə, məsələn yağı indiki kimi sellofana bukub vermirdilər, kağıza bükub verirdilər. Bu, daha sağlam üsuldur və təbiətə də zərər vurmur.

Ekologiyamızı zərərli maddələrdən müxtəlif formada qorumaq olar. İlk növbədə, polietilen torbaların alternativi olmalıdır ki, əhali bundan imtina etsin. Təbiətdə parçalanan, ekologiyaya zərər vurmayan materiallardan hazırlanan qablaşdırma olmalıdır. Bunlar kağız, parça torbalar və şüşə qablar, dəmir, karton və taxta taralar olmalıdır. Ekologiyaya zərər vurmayan belə məhsulların istehsalı təşkil olunmaldır.

Hazırda insanların həyat tərzi bu cür formalaşıb. İnsanlar alış-verişi polietelin torbalar vasitəsilə edir, qida məmulatlarını plastik qablaşdırmalarda alırlar. Ekologiyanı qorumaq məqsədi ilə bu vasitələri pulla satmaq çıxış yolu deyil. İlk növbədə, onların əvəzləyicilərini dövriyyəyə buraxmaq gərəkdir. Keçmişdə olduğu kimi, kağız, karton, parça paketlərdən istifadəyə keçmək lazımdır. Lakin zibil məsələsində problem yaranacaq. Zibil üçün təbiətdə çürüyən birdəfəlik biopaketlər hazırlana bilər.

Bu kampaniya əhalidən əlavə pul qoparmaq üçün yox, sağlamlıq və ekoloji mühit üçün həyata keçirilməlidir. Təbii paket və qablar istehsal edən müəssisələr açılmalı, vergidən azad edilməlidir ki, ucuz məhsul buraxa bilsinlər. Bundan başqa, şüşə qəbulu məntəqələri bərpa edilməlidir. Hər şüşə üçün 10 qəpik təklif edilməlidir. Bəzi ölkələrdə bu şüşələri qəbul edən xüsusi aparatlar qoyulur. Sadə qəbul məntəqləri də yaratmaq olar. Eləcə də, taxta və metal taralar üçün.

Mövcud qaydalar isə, sadəcə, əhalinin xərclərinin artmasına səbəb olacaq. Hazırda insanların demək olar ki, seçim hüququ yoxdur. Əksəriyyət işdən gələncə mağazadan evə lazım olan şeyləri alır və heç kim də cibində parça torba gəzdirəsi deyil. Müştəri mağazaya girib bazarlıq edəcəksə, paketlər üçün 20-30-40 qəpik əlavə xərci çıxacaq. Təbiətə zərrə vurmaq istəməyən vətəndaş hər dəfə xeyli xərcə düşməlidir. Bəzi marketlərdə 1 manata parça paketlər satılır. Bu, o deməkdir ki, 50-60 qəpik dəyərində məhsul (məsələn, 2 kiloqram kələm) alan insan bunun iki qatı pul ödəyərək həmin paketi almalıdır. Bu, absurddur.

Bu ekologiyanın qorunmasına ciddi təsir göstərməyəcək. İnsanlar, sadəcə, əlavə pul ödəməklə yenə o paketlərdən istifadə edəcəklər. Burada dəyişiklik, sadəcə, vətəndaşın artıq xərcinin çıxmasıdır. Əgər həqiqətən də insanları, ekologiyanı qorumaq məqsədi varsa, bu məsələlər həll olunmalıdır. Əks halda polietilen torbaların pul ilə satılması heç nəyi dəyişməyəcək. Dəyişən sadəcə, alıcıların əlavə xərcinin çıxması olacaq.

Bu gün marketlərdə nazik karton tipli paketlər var ki, qiymətləri ölçüsündəna asılı olaraq 1-5 manat aralığında satılır. İnsanlar çox vaxt bu paketləri hədiyyə üçün almalı olurlar. Lakin gündəlik bazarlıq üçün bunları almaqdan söhbət belə gedə bilməz. Çünki paket məhsuldan baha başa gələ bilər. Bu karton çantaların maya dəyəri uzağı 5-10 qəpik ola bilər. Əgər 10-15 qəpikdən satılsa bir çox insanlar onlardan istifadə edə bilər.

Yeri gəlmişkən, keçən il Sağlam Cəmiyyət Hərəkatı (SCH) polietilen torbalar və plastik qablarla bağlı sorğu keçirib, nəticə çox maraqlı olub. SCH-nin rəhbəri Elçin Bayramlının ”Səs” qəzetinə verdiyi məlumata görə, sorğu zamanı respondentlərə ”Alış-verişdə hansı torbalardan istifadə edirsiniz?” sualı ünvanlanıb. Soğruda iştirak edən 49 nəfərdən 44-ü polietilen-sellofan torbalardan istifadə etdiyini deyib, 2 nəfər parça torbadan, 1 nəfər kağız torbalara üstünlük verdiyini bildirib. İştirakçıların 95 faizi sellofan paketlərin və plastik qabların qadağan olunmasına tərəfdar çıxıb. Yalnız 4 faizi plastik qablaşdırmada ərzaq və su almadığını deyib.

Daha uzunömürlü və daha sağlam bir vasitə olan parça və kağız torbaların, taxta və metal taraların istehsalı üçün o qədər də çox vəsait tələb olunmur. Həm də bunlar birdəfəlik deyil çoxdəfəlik olduğundan israfçılığın və zibilləmənin qarşısı alınır, həm də ən əsası sağlamlığımız qorunmuş olur. Şüşə qablar torpaqdan, gildən hazırlandığından ucuz başa gəlir və təbiətə də zərər vurmur, üstəlik, onlar da çoxdəfəlik istifadə üçündür. Göründüyü kimi, alternativlər var, sadəcə, bu işi təşkil etmək və tədricən kimyəvi paketlərdən imtina edilməlidir. Beləcə həm əhalinin sağlamlığını qorunmuş olar, həm də təbiətimiz.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

17 fevral
2023-cü il

# Uşaq xərçəngi nədən yaranır?-
# SƏBƏBLƏR VƏ MÜALİCƏ YOLLARI





**Uşaqlarda ikinci ən çox ölüm səbəbi olan xəstəliklərdən biri xərçəngdir. Onun əlamətləri bir çox adi uşaqlıq xəstəliklərində də müşahidə oluna bilər. Bu, xəstəliyin erkən mərhələlərində diaqnoz və müalicəyə mane olduğu üçün əlamətlərə qarşı son dərəcə diqqətli olmaq lazımdır. SİA mövzu ilə bağlı araşdırma aparıb.**



ARAŞDIRMA

## Şişlərdə erkən diaqnoz çox vacibdir

Uşaqlarda ən çox rast gəlinən xərçənglər: lösemilər, beyin şişləri, limfomalar, böyrək və adrenal boğaz şişləri, yumşaq toxuma şişləri, sümük şişləri, bəzi orqan şişləri və retinoblastoma, yəni göz şişləri.

Cəmiyyətdə leykozlarla bağlı məlumatlılıq yüksək olsa da, uşaqlıq şişlərinin 75%-ni təşkil edən bərk şişlərdə və limfomalarda daha azdır. Üstəlik, bu şişlərdə erkən diaqnoz çox vacibdir və buna görə də maarifləndirmə lazımdır.

## Bu əlamətlərə diqqət edin!

Uşaqlıq xərçənginin xəbərdaredici əlamətləri ilə qarşılaşdıqda gecikmədən həkimə müraciət edilməlidir. Uşaqlarda xərçəngin 8 xəbərdaredici əlamətini aşağıdakı kimi sıralamaq olar:

1) Çürüklərin asan əmələ gəlməsi, diş ətində, burunda və dəridə təkrarlanan qanaxmalar

2) Səbəbi hələ müəyyən edilməmiş yorğunluq, bitkinlik və zəiflik

3) Baş ağrısı və səhər ürəkbulanma olmadan qusma ilə müşayiət olunur

4) Səbəbi olmayan və uzun müddət davam edən qızdırma

5) Pəhriz saxlamadan son altı ayda 10%-dən çox çəki itirmək

6) Boyun, qarın və ya bədənin hər hansı bir yerində şişkinlik

7) Sümüklərdə və oynaqlarda uzun müddət davam edən ağrılar

8) Körpələrdə və uşaqlarda "leykokoriya" adlanan pişik gözü görünüşü. Bu gün körpənin demək olar ki, hər anının fotoşəkilinin çəkildiyini nəzərə alsaq, göz şişi olan retinoblastomun erkən diaqnozu daha asan ola bilər. Şəkillərdə körpənin göz bəbəyi ağ rəngdədirsə, bu ciddi qəbul edilməli və araşdırılmalıdır.

Qızdırma daha çox uşaqlarda infeksiyalara bağlı olsa da, gedişindən asılı olaraq lösemi, lenfoma, neyroblastoma səbəbiylə də baş verə bilər.

Adi uşaq xəstəliklərinin simptomları ilə qarışdırılan başqa bir ümumi simptom sümük ağrısıdır. Bu ağrılar daha çox böyüyən ağrılar kimi görünsə də, xüsusiyyətlərinə görə sümük şişi, lösemi, lenfoma və ya neyroblastoma səbəb ola bilər. Burada ən vacib məqam bu ümumi simptomların qeyri-adi xüsusiyyətlərini aşkar etmək və vaxtında müalicəyə başlamaqdır.

## Xərçəngin əlamətlərini uşaqlıq dövrü xəstəliklərinin əlamətləri ilə qarışdırmayın

Burada diqqət çəkən məqam odur ki, uşaqlarda görülən bəzi əlamətlər uşaqlıq çağında rast gəlinən xəstəliklərin əlamətləri ilə qarışdırılmamalıdır. Misal üçün, boyunda şişlərin əmələ gəlməsi yuxarı tənəffüs yollarının infeksiyasının əlamətidir. Ancaq ağlabatan müddətdə aradan qalxmazsa və ya antibiotiklərə cavab vermirsə, bu lösemi, lenfoma, neyroblastoma, tiroid xərçəngi və ya yumşaq toxuma şişi də ola bilər.

## Baş ağrılarına və şişkinliyə diqqət yetirin

Uşaq xərçənginin başqa bir ümumi simptomu baş ağrılarıdır. Səhər təkrarlanan, uzanmış vəziyyətdə baş verən və şiddəti artan baş ağrıları şişin varlığını göstərir. Qarın nahiyəsində şişkinlik, qızdırma, tualetə gedə bilməmə, sidiyin qanlı olması, qarın dərisində damarların görünməsi ilə müşayiət olunan qarın nahiyəsində ağrılar uşağın yaşından asılı olaraq müxtəlif qarın içi şişlərin əlaməti ola bilər. Uşaqlarda çimərkən və geyinərkən qarın şişkinliyi müşahidə edilərsə, qarın nahiyəsinə toxunduqda hər hansı sərtlik yaranarsa dərhal həkimə müraciət edilməlidir.

## Uşaq onkoloquna gecikmədən müraciət edilməlidir

Qeyri-adi simptomlar halında uşaq onkoloquna müraciət edilməlidir. Xəstəliyin erkən diaqnozu onun daha qısa müddətdə və uğurla müalicə olunmasına imkan verəcək. Uşaqlıq xərçəngləri diaqnoz qoyulduğu andan ailə və uşaq üçün uzunmüddətli prosesin başlanğıcıdır.



## Uşaq xərçəngi necə müalicə edilir?

Şişin növü və mərhələsinə görə dəyişsə də, yetkinlərdə olduğu kimi uşaq xərçənglərində də kimyaterapiya, cərrahiyyə və radioterapiya tətbiq edilir. Bəzi şişlərdə kök hüceyrə transplantasiyası gündəmə gələ bilər.

## Uşaqlarda xərçəngə daha çox rast gəlinir

Uşaq onkoloqlarının verdiyi məlumata görə, uşaqlıq xərçənglərinin müalicəyə reaksiyası və xərçəngdən sağalma nisbətləri böyüklərə nisbətən daha yaxşıdır. Bundan əlavə, kimyaterapiya kimi yüksək yan təsir profili olan müalicələrə uşaqlar böyüklərdən daha davamlıdırlar.

Mütəxəssislər bunu uşaqlarda hüceyrənin intensiv və sürətli yenilənməsi, xərçənglə müşayiət olunan ürək, böyrək, qaraciyər, xəstəliklər və orqan zədələnmələrinin olmaması ilə əlaqələndirirlər. Beləliklə, uşaqlar daha yüksək dozada kimyaterapiyaya dözür, hüceyrələr daha asan bərpa olunur və yan təsirlər daha tez geri qayıdır.

Kəskin leykemiya uşaqlıqda ən çox rast gəlinən xərçəngdir. Sonra böyrəküstü vəzi, böyrək, yumşaq toxuma və sümük şişləri gəlir. Uşaqlarda göz və qaraciyər şişləri daha az, dəri şişləri isə çox nadirdir. Onkoloq-cərrah İbrahim Əsədli: "Uşaqlar arasında yayılmış ən böyük onkoloji xəstəliklər neyroendokrin və qan xəstəlikləridir. Müalicəsi də o dərəcədə effektlidir ki, düzgün molekulyar genetik əsaslıq tapılsın. Amma biz hesab edirik ki, onkoloji xəstəliklər psixisamatozdur və burada yalnız kompleks müalicə effekt verə bilər. Yəni, insanın daxili ekologiyası, qidası və təfəkkürü təmizlənməlidir.

Uşaqlar valideynlərdən asılıdır deyə, ailədə olan psixoloji mühit və qidalanma çox önəmlidir. Beləliklə, uşaqlarda olan onkoloji xəstəliklərin müalicəsi üçün ilk öncə ətrafdakı ekoloji duurm düzəlməlidir. Məsələn, qəti şəkildə qadağandır: şirin qidalar, ət məhsulları, un məmulatları və s. Rəsmi onkologiyada bunlara diqqət yetirilmir. Burada ancaq cərrahiyə və kimyaşüa üsulları ətrafında dövr edirlər".

***Ayşən Vəli***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**